RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 223 (9968) 17 oktyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İşğaldan azad edilmiş ərazilərimizdə müasir şəhərsalma modeli tətbiq olunur



### Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.**

2

## Niderland şirkətləri ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərir



### Prezident İlham Əliyev Niderlandın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul edib.**

2

## Azərbaycan ilə Misir arasında etimad və dostluğun nümunəsi mövcuddur



### Prezident İlham Əliyev Misirin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib.**

2

# “Zəfər yolu”nun başlanğıcı

## Füzuli Şəhəri Günü böyük təmtəraqla qeyd edilir



Vətən müharibəsi başa çatdıqdan sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ilk səfərləri Cəbrayılla yanaşı, Füzuliyə də oldu. Bununla Prezident İlham Əliyev düşmən tapdağından xilas olmuş, azadlığına qovuşmuş daha bir şəhərdə üçrəngli bayrağımızı qaldırdı.

Həmin günü əlamətdar edən daha bir xüsusi hadisə isə Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulmasıdır. Bu yol isə bizi qələbəyə aparan Zəfər yoludur.

Füzuli həm də Qarabağa açılan hava yolunun ilk ünvanıdır. Bu gün Şuşaya səfər etmək istəyənlər, xüsusən xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanı vasitəsilə rahat və qısa şəkildə bu bölgəyə çatırlar. Füzuli aeroportu işğaldan azad edilmiş ərazilərimizdəki ilk hava limanı olaraq mühüm əhəmiyyətə malikdir. Hava limanının əsas məqsədi qonaqların və sərnişinlərin Şuşaya gəlişini təmin etmək olsa da, iqtisadi, ticari baxımdan da perspektivləri var. Füzuli Beynəlxalq Hava Limanı qısa zaman kəsiyində - cəmi 8 aya tikilərək istifadəyə verilib. Hava limanı 2021-ci il oktyabrın 26-da Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılıb.

Aeroport istənilən tip hava gəmisini qəbul etmək imkanına malikdir, müasir infrastrukturla təchiz olunan terminal saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir.

6

*Mariyana KUYUNDZİÇ:*

## "Azərbaycan fəal regional diplomatiya siyasəti yürüdür"



### Prezident İlham Əliyev Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbərinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul edib.**

2

## Azərbaycanla Fransa enerji sahəsində uğurlu tərəfdaşdırlar



### Azərbaycan Prezidenti Fransanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edib.**

2

## Fəal və uğurlu diplomatiya

Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərindən bəhs etdi. Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğuladı. O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxundu, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd etdi.

8

## ABŞ-dən Çinə qədər…

Bütün bu nailiyyətlərimizin müəllifi olan Prezident İlham Əliyev isə dünyanın sayılıb-seçilən liderləri ilə bir sırada dayanır, siyasi platformalarda böyük ehtiram və hörmətlə qarşılanır. Bunu dövlətimizin başçısının son dövrlərdə iştirak etdiyi nüfuzlu tədbirlər də təsdiqləyir. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyev bu tədbirlərdə dünyanın aparıcı siyasi qütblərinin liderlərinin dəvəti ilə iştirak edib.

Məsələn, bir müddət əvvəl Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində iştirak etdi. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının üzvü deyil və bu tədbirə dəvət olunması Prezident İlham Əliyevə olan yüksək qlobal ehtiramın təcəssümüdür.

Oktyabrın əvvəllərində isə Prezident İlham Əliyev Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə siyasi və strateji müzakirələr üçün yaradılmış əlaqələndirmə platforması olan Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etdi.

7



# İşğaldan azad edilmiş ərazilərimizdə müasir şəhərsalma modeli tətbiq olunur

## Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, söhbət zamanı qonağın Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakının önəminə toxunuldu.

Anaklaudia Rossbax forumun yüksək səviyyədə təşkil edildiyini deyərək, həmin tədbirdə şəhərsalma məsələləri ilə bağlı çox aktual müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan-UN-Habitat tərəfdaşlığı çərçivəsində ölkəmizdə indiyədək bir neçə milli şəhərsalma forumunun keçirildiyi məmnunluqla qeyd edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan irimiqyaslı bərpa-yenidənqurma işlərinə toxunuldu, işğaldan azad edilmiş ərazilərimizdə şəhər və kəndlərimizin inşasında yeni müasir şəhərsalma modelinin tətbiq olunduğu bildirildi.

Qonaq Azərbaycanın BMT-nin Məskunlaşma Proqramına könüllü maliyyə töhfələrinə və onun fəaliyyətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. O, COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayaraq, bu tədbirdə iqlim gündəliyi ilə urbanizasiya fəaliyyətinin bir araya gətirildiyini və bu xüsusda Azərbaycanın təşəbbüslərlə çıxış etdiyini məmnunluqla vurğuladı.

Görüşdə 2026-cı ildə ölkəmizdə keçiriləcək Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Digər mötəbər beynəlxalq tədbirlər kimi bunun da yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edildi.

# Azərbaycan ilə Misir arasında etimad və dostluğun nümunəsi mövcuddur

## Prezident İlham Əliyev Misirin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev ilk növbədə Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirdi.

Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxundu.

Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulandı.

Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olundu.

# *Mariyana KUYUNDZİÇ:* "Azərbaycan fəal regional diplomatiya siyasəti yürüdür"

## Prezident İlham Əliyev Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbərinin etimadnaməsini qəbul edib





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Mariyana Kuyundziç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərinə toxundu.

Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğuladı.

O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxundu, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd etdi.

Mariyana Kuyundziç Avropa İttifaqının ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirdi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Niderland şirkətləri ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərir

## Prezident İlham Əliyev Niderlandın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşünü xatırladan Prezident İlham Əliyev həmin görüş əsnasında tərəfdaşlığımızın müxtəlif aspektlərinin müzakirə olunduğunu vurğuladı, bir çox sahədə əməkdaşlığı gücləndirmək barədə razılığın əldə edildiyini bildirdi. Hazırda Niderland şirkətlərinin ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı gələcəkdə onların sayının çoxalacağına ümidvar olduğunu ifadə etdi.



Qəbula görə minnətdarlığını bildirən səfir Niderlandın Kralı Villem-Aleksandrın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderlandın Kralı və Baş nazirinə çatdırmağı xahiş etdi.

Marian de Yonq ölkəsinin Azərbaycanla siyasi və iqtisadi sahədə güclü əməkdaşlıq etmək niyyətində olduğunu dedi, bunun qarşılıqlı fayda verəcəyinə əminliyini vurğuladı.

# Azərbaycanla Fransa enerji sahəsində uğurlu tərəfdaşdırlar

## Azərbaycan Prezidenti Fransanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Kopenhagendə Fransa Prezidenti Emmanuel Makronla görüşünü xatırlayaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını dedi. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlətimizin başçısı ilk növbədə insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxundu.

Səfir də öz növbəsində Azərbaycanla Fransa arasında münasibətlərdə yeni səhifənin açıldığını deyərək, əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.



Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən yüksək texnologiyalar və aerokosmik sahələrdə uğurlu inkişafına toxunuldu. Hökumətlərarası Komissiyanın fəaliyyətinin bərpasının əhəmiyyəti vurğulandı, qardaşlaşmış şəhərlər arasında əlaqələr qeyd edildi, biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili və müxtəlif layihələrdə Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə olundu. Azərbaycanla Fransanın enerji sahəsində uğurlu tərəfdaşlığı və bu xüsusda ölkəmizlə "Total" şirkəti arasında əməkdaşlığın önəmi qeyd edildi.

Söhbət zamanı bir çox sahədə münasibətlərimizin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulandı.

◆ Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri

# Vatikanda Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılışı olub

## Birinci vitse-prezident Mehriban Əliyeva açılış mərasimində iştirak edib











**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, oktyabrın 16-da səfər çərçivəsində Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone, Mədəniyyət və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi və Roma şəhərinin VIII bələdiyyəsinin prezidenti Amedeo Çakkeri Birinci vitse-prezident Mehriban Əliyevanı qarşıladılar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirib. Paskuale Yakobone Kommodilla katakombalarının açılışında iştirakına görə Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkürünü ifadə edib.

Bu layihə həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihənin icra olunduğunu vurğulayan komissiyanın prezidenti Müqəddəs Marçelino və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını vurğulayıb.

"Heydər Əliyev Fondunun dəstəyi ilə bir tərəfdən mürəkkəb, lakin digər tərəfdən bizi çox ilhamlandıran, böyük enerji verən bərpa işlərini birgə həyata keçirdik", - deyə o əlavə edib.








Paskuale Yakobone layihə çərçivəsində Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının üzvlərinin 2024-cü ilin iyulunda Azərbaycana yaddaqalan səfərini xatırladıb. O, bu işin yüksək səviyyədə başa çatdırılmasına görə Heydər Əliyev Fonduna dərin təşəkkürünü bildirib.

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi ölkəmizə səmimi və dərin dostluq telləri ilə bağlı olduğunu vurğulayaraq, Azərbaycana üç dəfə səfər etdiyini diqqətə çatdırıb, səfərlər çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu və məhz onun qərarı ilə Azərbaycan dövlətinin ən yüksək mükafatlarından birinə - "Dostluq" ordeninə layiq görüldüyünü qeyd edib. Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən söz açaraq deyib: "Bu münasibətlər uzun illər ərzində formalaşıb, şəxsən mənə böyük və dərin təəssürat bağışlayıb. Təşkil etdiyimiz səfərlərdə Birinci vitse-prezidentin arxeologiya sahəsinə xüsusi bağlılığının şahidi olduq. Çünki səfərlər çərçivəsində bərpa olunan yerləri şəxsən özü ziyarət edirdi. Əlbəttə ki, onun dəstəyi sayəsində, Heydər Əliyev Fondunun göstərdiyi yardım nəticəsində bu gün katakombaların açılışında əməkdaşlığımızın yeni bir səhifəsini yazırıq. Görülmüş işlərə görə Birinci vitse-prezidentə dərin təşəkkürümü bildirirəm".

O, hər iki tərəfin bu sahədə ahəngdarlıq nümayiş etdirdiyini qeyd edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca növbəti səfərindən böyük şərəf hissi duyduğunu bildirib. Heydər Əliyev Fondunun prezidenti bunun son 14 ildə Vatikana altıncı səfəri olduğunu diqqətə çatdırıb.

"Mən çox şadam ki, biz bu illər ərzində çox gözəl əməkdaşlıq yaratmışıq. Buraya hər gəlişimizdə bizim dostlarımızın sayı artır", - deyə Birinci vitse-prezident qeyd edib.

Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu vurğulayan Mehriban Əliyeva deyib: "Bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir. Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir".

Birinci vitse-prezident həm Vatikanda, həm də Azərbaycanda bu layihələrdə əməyi olan şəxslərə dərin minnətdarlığını ifadə edərək bildirib: "Heydər Əliyev Fondu olaraq gələcəkdə əməkdaşlığımızı davam etdirməyə maraqlıyıq və hazırıq. İnanıram ki, bu fəaliyyət davamlı olacaq. Sonda katolik dünyası üçün böyük mənəvi dəyərlər daşıyan "Yubiley İli" münasibətilə hər birinizi təbrik edirəm. Fürsətdən istifadə edərək, sizi Azərbaycana səfərə dəvət edirəm".

Roma şəhərinin VIII bələdiyyəsinin prezidenti Amedeo Çakkeri Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında çalışan insanlara burada görülmüş işlərə görə təşəkkürünü bildirib. Bu layihə üzərində bir neçə il çalışdığını deyən bələdiyyə prezidenti Azərbaycan səfirliyi ilə sıx əməkdaşlıq etdiklərini diqqətə çatdırıb.

Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Kommodilla katakombalarının açılışı olub.

Qeyd edilib ki, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin Vatikana səfəri zamanı 2021-ci il martın 4-də Fond və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilə imzalanıb. Bildirilib ki, katakombaların yerləşdiyi məkan XVIII əsrdə aşkar olunub, ilkin tədqiqatlar 1900-cü ildən başlanıb. Erkən xristianlıq dövrünə aid ilk artefaktların mövcud olduğu katakomba Felisio və Adauktus adlı xristian əzabkeşlərinin dəfn olunduğu məkan kimi də tanınır və Orta əsrlərdə möminlərin ziyarətgahı olub. Katakombada ilk xristian əzabkeşi San Stefano, İsa Peyğəmbərin həvari Pietroya cənnətin açarlarını təqdim etməsi və digər mövzularda freskalar müstəsna dini və tarixi əhəmiyyət daşıyır. Ötən əsrin 50-ci illərində bu ərazidə yaşayış binalarının tikintisi katakombanın statikasına mənfi təsir göstərib. Heydər Əliyev Fondunun göstərdiyi dəstək katakombanın böyük arxeoloji dəyərə malik olan bu hissəsini uçmaq təhlükəsindən qoruyub.

Bərpa prosesi zamanı işçilərin sağlamlığı üçün təhlükəsiz, ekoloji cəhətdən təmiz materialların istifadəsi də daxil olmaqla müasir metod və texnologiyalar tətbiq edilib. Məhsulların möhkəmləndirilməsi prosesində nanotexnologiyadan və boyalı səthlərin emalı üçün lazer texnologiyasından istifadə olunub. Bütün materiallar yeraltı mühitlə yüksək uyğunluq nəzərə alınmaqla seçilib.

Qeyd edək ki, Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər Müqəddəs Taxt-Tac tərəfindən səmərəli əməkdaşlıq və mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi nümunəsi kimi yüksək qiymətləndirilir.

◆ Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri

# Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 16-da Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Müqəddəs Taxt-Taca son 14 il ərzində altıncı dəfə səfər etdiyini xatırladan Birinci vitse-prezident Mehriban Əliyeva bu illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib. Birinci vitse-prezident bu illər ərzində bir sıra mühüm layihələrin bərpasında Heydər Əliyev Fondunun dəstəyini diqqətə çatdıraraq, gələcəkdə də bu fəaliyyəti davam etdirəcəklərini vurğulayıb.

Bu gün Müqəddəs Kommodilla katakombalarının açılışında birgə iştirak etdiklərini deyən Mehriban Əliyeva bunun Heydər Əliyev Fondunun böyük layihələrindən biri olduğunu diqqətə çatdıraraq deyib: "Roma elə şəhərdir ki, həm yerin altı, həm də üstü demək olar səma altında açıq muzeydir. Bizim fəaliyyətimiz elə qurulub ki, bəzi layihələr sona çatan kimi yeni layihələrə start veririk. Bu, çox davamlı əməkdaşlıqdır və mən onu yüksək dəyərləndirirəm".

Baş keşiş kardinal Ceyms Harvi bu cür mühüm layihələri həyata keçirdiklərinə və görülmüş işlərə görə Müqəddəs Taxt-Tac adından Azərbaycan dövlətinə və Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Kardinal qeyd edib ki, bütün katolik və xristian icmalarının əsaslarının qoyulmasında Müqəddəs Pavel çox böyük rol oynayıb. O, Müqəddəs Pavel Bazilikasında indi və gələcəkdə silsilə tədbirlərin keçiriləcəyini vurğulayaraq deyib: "Gördüyünüz bu nəcib işlər Sizin ölkənizi daha yaxından tanımaq üçün yaxşı fürsətdir".

Heydər Əliyev Fondunun Müqəddəs Pavel Bazilikasının örtüklərinin bərpasında iştirak etdiyini vurğulayan baş keşiş bu işin başa çatdırılmasında xeyli zəhmət çəkildiyini söyləyib. O, Romaya gələn zəvvarların sayını nəzərə alaraq, həmin bazilikada təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycanın dəstəyi ilə görülmüş işlərin müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

Sonra Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harviyə xatirə hədiyyəsi təqdim olunub.







# Azərbaycanın Birinci vitse-prezidenti Vatikanda Müqəddəs Pavel Bazilikasında həyata keçirilən bərpa işləri ilə tanış olub







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 16-da Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, keşiş Don Lodoviko Turrisi və arxitektor Marko Çiriaki Birinci vitse-prezident Mehriban Əliyevaya kilsə və burada görülən işlər barədə məlumat veriblər.

Diqqətə çatdırılıb ki, Müqəddəs Pavel Bazilikası Müqəddəs Pyotr Bazilikasından sonra Vatikanın ikinci ən böyük kilsəsidir və 1980-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bildirilib ki, Müqəddəs Həvari Pavelin dəfn olunduğu yer üzərində inşa edilən bu kilsə Romada yerləşən dörd əsas papal bazilikadan biridir, Roma Katolik Kilsəsinin ən müqəddəs və tarixi məkanlarından sayılır. Bazilikanın daxili hissəsində I Pyotrdan başlayaraq indiyədək bütün papaların mozaika portretləri yerləşdirilib. Vatikanın gur səs-küylü mühitindən uzaqda yerləşdiyi üçün bazilika sakit və ruhani atmosferi ilə seçilir.

Xatırladaq ki, 2024-cü il sentyabrın 11-də 25 ildən bir təşkil olunan və Müqəddəs Taxt-Tac tərəfindən qeyd edilən "Yubiley İli" çərçivəsində Vatikan Şəhər Dövlətinin Qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin təhlükəsizliyinin təmin olunmasını və təmirini nəzərdə tutan sənəd imzalanıb. Sənədi Qubernatorluğun sabiq prezidenti kardinal Fernando Vergez Alzaqa və Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov imzalayıblar.

# Birinci vitse-prezident Mehriban Əliyeva Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında olub

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 16-da Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında olub.**





AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olub.

"Bambino Gesu" pediatrik xəstəxanasının prezidenti Titsiano Onesti Birinci vitse-prezident Mehriban Əliyevaya laboratoriyalar haqqında məlumat verib.

Bildirilib ki, 1869-cu ildə Salviati ailəsi tərəfindən əsası qoyulmuş, Roma şəhərində yerləşən, Müqəddəs Taxt-Tacın ekstraterritorial ərazisi hesab olunan "Bambino Gesu" pediatrik xəstəxanası ilkin olaraq özəl xəstəxana kimi yaradılıb. Bu tibb müəssisəsi uşaq müalicəsi üçün nəzərdə tutulmuş ilk strukturlar arasındadır.

Diqqətə çatdırılıb ki, "Bambino Gesu" pediatrik xəstəxanası İtaliya dövləti tərəfindən maliyyələşdirilən və dövlət xəstəxanası kimi fəaliyyət göstərən qurum olmasına baxmayaraq, Müqəddəs Taxt-Tacın bir müəssisəsidir və birbaşa ona hesabat verir, onun rəhbərliyinə tabedir. 2006-cı ildə xəstəxana "Joint Commission International" tərəfindən akademik xəstəxana kimi akkreditə olunub və hazırda Avropanın ən böyük uşaq xəstəxanası və tədqiqat mərkəzidir.

Qeyd olunub ki, San Paolo filialı xəstəxananın genetik və hüceyrə tədqiqatları üçün ən müasir texnologiyalarla təchiz edilmiş böyük tədqiqat laboratoriyalarının, o cümlədən qabaqcıl müalicə üsullarının tətbiq olunduğu əczaçılıq emalatxanasının mərkəzidir. Burada klinik diaqnozların nəticələri bir daha təsdiqlənmək üçün genetik analizlərlə qarşılaşdırılır, habelə metabolik analizlər sayəsində pasiyentlərə fərdi tibbi yanaşma tətbiq olunur.

Bu il sentyabrın 10-da Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın "Bambino Gesu" pediatrik xəstəxanası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

"Bambino Gesu" xəstəxanası ilə qurulan əməkdaşlıq nadir xəstəliklər, molekulyar genetika, klinik diaqnostika və digər müvafiq sahələrin Azərbaycanda inkişafına mühüm töhfə verəcək. Bu tərəfdaşlıq azərbaycanlı alim və tədqiqatçılara qabaqcıl elmi yanaşmalara yiyələnmək və müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalarda araşdırmalar aparmaq imkanı yaradacaq. Nəticədə ölkəmizdə bu sahələrdə müstəqil elmi tədqiqatlar aparmağa qadir kadr potensialı formalaşacaq, beynəlxalq standartlara cavab verən yeni laboratoriyaların təsis olunması üçün şərait yaranacaq. Həmçinin əməkdaşlıq çərçivəsində səhiyyə mütəxəssislərimizin təlim və mübadilə proqramlarında iştirakı nəzərdə tutulub.

# Spiker Sahibə Qafarova ICAPP-ın nümayəndə heyəti ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 16-da Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAPP) Daimi Komitəsinin sədri Çunq Eu Yonqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumata görə, Azərbaycanın Asiya ölkələri ilə siyasi əlaqələrin inkişafına xüsusi önəm verdiyini deyən spiker Sahibə Qafarova, ICAPP-ın regionda çoxtərəfliliyin, həmrəyliyin mühüm mexanizmi kimi çıxış etdiyini, Asiyada sülhü, təhlükəsizliyi və əməkdaşlığı təşviq edən mühüm platforma olduğunu bildirib.

Söhbət zamanı Ulu Öndər Heydər Əliyevin qurucusu, Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin hakim partiyası kimi rolu, fəal beynəlxalq əlaqələri haqqında məlumat verilib. YAP-ın Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransında fəal və uğurla təmsil olunmasından məmnunluq ifadə olunaraq, tərəflər arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd edilib. O cümlədən YAP-ın təşkilatçılığı ilə Bakıda keçirilən Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının (ACC) "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusunda 4-cü iclası kimi beynəlxalq tədbirlər müxtəlif ölkələrin siyasi partiyaları və mədəni qurumları arasında dialoqun gücləndirilməsinə, qarşılıqlı anlaşmanın dərinləşdirilməsinə və ortaq dəyərlər əsasında əməkdaşlığın inkişafına mühüm töhfə verir.

ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq təmsil etdiyi təşkilatın Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini deyib və ölkəmizin hakim partiyası ilə mövcud əlaqələrin inkişafını qeyd edib.

Söhbətdə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və hazırda Azərbaycan Milli Məclisinin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə ICAPP arasında əməkdaşlığın gələcək inkişaf perspektivləri, Asiya regionunda parlamentlərarası əlaqələrin genişləndirilməsi və qarşılıqlı anlayışın dərinləşdirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 9 iyul tarixli 294 nömrəli, "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 13 avqust tarixli 207 nömrəli Qərarının ləğv edilməsi barədə" 2020-ci il 30 iyul tarixli 274 nömrəli və "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2022-ci il 28 aprel tarixli 175 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 298**

**Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1317 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və 1-ci hissədə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.3. həmin Qərarla təsdiq edilmiş "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası" üzrə:

1.3.1. adında "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.2. 1-ci hissə üzrə:

1.3.2.1. 1.1-ci (hər iki halda) və 1.2-ci bəndlərdə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.2.2. 1.6-cı bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.3.3. 2-ci hissə üzrə:

1.3.3.1. 2.1-ci bəndin birinci cümləsində"və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.3.2. 2.2.4-cü yarımbənd üzrə:

1.3.3.2.1. birinci cümlədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "Əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.3.2.2. ikinci cümlədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.3.3. 2.4-cü bənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.3.4. 3-cü hissə üzrə:

1.3.4.1. 3.1-ci bənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs" sözləri "əlilliyi müəyyən edilmiş şəxs və ya əlilliyi olan uşaq" sözləri ilə, "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.3.4.2. 3.2-ci bənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri "əlilliyi müəyyən edilmiş şəxsə və ya əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin;

1.3.4.3. 3.3-cü bəndin ikinci cümləsində"və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.4.4. 3.5.1-ci yarımbənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs" sözləri "əlilliyi müəyyən edilmiş şəxs və ya əlilliyi olan uşaq" sözləri ilə əvəz edilsin;

1.3.4.5. 3.5.3-cü yarımbənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri "əlilliyi olan uşağın" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər də" sözləri "əlilliyi olan uşaqlar da" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1.6-cı yarımbəndin 2-ci abzasında "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

3.2. 4.1.7-ci yarımbənd üzrə:

3.2.1. "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri "əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin;

3.2.2. 1-ci abzasda "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri "əlilliyi olan uşağın" sözləri ilə əvəz edilsin;

3.2.3. 2-ci abzasda "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Baş nazirin müavini Samir Şərifov ICAPP-ın nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov oktyabrın 16-da Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAPP) Daimi Komitəsinin sədri Çunq Eu Yongun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə S.Şərifov Azərbaycan Prezidenti İlham Əliyevin Asiya ölkələri ilə əlaqələrin inkişafını xarici siyasətin əsas prioritetlərindən biri kimi müəyyənləşdirdiyini bildirib. Bu kontekstdə ölkəmizin Asiya və Okeaniya regionunda yerləşən inkişafda olan ölkələri, ələlxüsus kiçik ada ölkələri üçün yardım proqramlarını həyata keçirdiyini bildirib.

2009-cu ildən ICAPP-ın Daimi Komitəsinin üzvü olan Yeni Azərbaycan Partiyasının təşkilatın fəaliyyətinə verdiyi töhfələrdən söz açan Baş nazirin müavini ötən müddət ərzində YAP-ın ICAPP-ın bir sıra yüksəksəviyyəli tədbirinə, o cümlədən 7-ci Baş Assambleyasına uğurla evsahibliyi etdiyini deyib.

Bu baxımdan sabah Bakıda keçiriləcək "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusunda ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının əhəmiyyətinə toxunulub.

Azərbaycanın ICAPP təşəbbüslərində fəal iştirak vasitəsilə Asiyada siyasi dialoqun gücləndirilməsinə, sülhün, sabitliyin və dayanıqlı inkişafın təşviqinə töhfə verdiyi vurğulanıb.

S.Şərifov həmçinin ölkəmizin Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərini 2020-ci ildə azad etməsi, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan böyük quruculuq və bərpa işləri barədə ətraflı məlumat verib.

Bu xüsusda Azərbaycanın Ermənistanın işğalı nəticəsində böyük maliyyə vəsaiti tələb edən fəsadlarla mübarizə apardığı bildirilib. Ermənistanın təcavüzü nəticəsində Azərbaycana dəymiş ziyan 150 milyard ABŞ dolları həcmində qiymətləndirilir.

Buna baxmayaraq, o, məhz Azərbaycanın sülhsevər ölkə olaraq Ermənistana sülh sazişinin imzalanmasını təklif etdiyini vurğulayaraq, iki ölkə arasında avqustun 8-də Vaşinqtonda sülhün bərqərar edilməsinə dair tarixi razılaşmaya nail olunduğunu diqqətə çatdırıb.

# Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

Oktyabrın 16-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Musa Quliyev gündəliyə bir məsələnin - "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsinin daxil edildiyini bildirib.

Qanun layihəsi barədə danışan komitə sədri deyib ki, sənəd istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri zamanı əmək qabiliyyətinin itirilməsi hallarının daha dəqiq müəyyən olunması məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsini nəzərdə tutur. Layihə sığorta olunan şəxslərin əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair yeni qaydaların tətbiqini təmin etməklə bu sahədə vahid, şəffaf və müasir tələblərə uyğun mexanizmin formalaşdırılmasına xidmət edəcək.

İclasda Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Ramin Rzayev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Sabir Qocayev qanun layihəsi barədə məlumat veriblər. Bildirilib ki, qanun layihəsində təklif edilən dəyişikliklərə əsasən, sığorta hadisəsi nəticəsində zərərçəkmiş sığortaolunanın əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydası Nazirlər Kabineti tərəfindən təsbit ediləcək. Bu isə öz növbəsində həmin sahədə tənzimləmələrin müvafiq qaydalarla həyata keçirilməsinə, fəaliyyətin daha operativ təşkilinə və vahid yanaşmanın təmin olunmasına imkan yaradacaq.

Qanun layihəsinin müzakirəsində Əmək və sosial siyasət komitəsinin sədr müavini Elşad Musayev, üzvləri Ziyad Səmədzadə, Nigar Məmmədova və Göydəniz Qəhrəmanov çıxış edərək məsələ ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Tədbirin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Zəfər Gününə həsr olunmuş hərbi parada hazırlıq məşqləri keçirilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq tapşırığına əsasən, noyabrın 8-də Bakı şəhərində Zəfər Gününün 5-ci ildönümü münasibətilə hərbi parad keçiriləcək.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, parada hazırlıqla bağlı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Azərbaycan Ordusunun bölmələri ilə məşqlər keçirilir.

Hazırlıq məşqləri zamanı Bakı şəhərində və ətraf ərazilərdə aviasiya vasitələrinin uçuşları, avtomobil və döyüş texnikalarının, həmçinin gəmilərin müəyyən edilmiş marşrutlar üzrə hərəkəti və yerdəyişməsi icra olunur.

# Möhtəşəm qələbənin sevincli günləri





# "Zəfər yolu"nun başlanğıcı

## Füzuli Şəhəri Günü böyük təmtəraqla qeyd edilir

**"Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib: Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri". Beş il öncə oktyabrın 17-də bu müjdəli xəbəri Ali Baş Komandan İlham Əliyevdən aldıq.**

Vətən savaşının 21-ci günü idi...

Həmin günlərdə davamlı qələbə, yurdlarımızın işğaldan azad olunması xəbərlərini eşidirdik dövlətimizin başçısından. Müzəffər ordumuz dayanmadan irəliləyir, düşmənin başını əzərək torpaqlarımızı azadlığına qovuşdururdu.

Elə ən çətin döyüş əməliyyatlarının aparıldığı rayonlardan biri də Füzuli idi...

Bu istiqamətdə döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri əzmlə irəliləyir, düşmənin canına qorxu salırdı. Nəticəsi isə bu gün göz qabağındadır: yenidən qurulan, dirçələn Füzuli...

Xatırladaq ki, Füzulinin bəzi kəndləri müharibənin başladığı ilk gündə azad olunmuşdu. Belə ki, sentyabrın 27-də Ermənistanın genişmiqyaslı təxribatlarına cavab olaraq əks-hücum əməliyyatı keçirən Azərbaycan Ordusu Füzulinin üç yaşayış məntəqəsini - Qaraxanbəyli, Qərvənd və Horadizi düşmən tapdağından azad etmişdi. Ordumuz ermənilərin "keçilməz" adlandırdığı "Ohanyan səddi"ni aşaraq irəliləmişdi.

TARİXƏ BİR NƏZƏR: Füzulinin əsası 1827-ci ildə qoyulub. 1930-cu ildə Qarabulaq adlanan yaşayış məskəninin əsasında rayon təşkil olunub və Qaryagin adlandırılıb. Rayon mərkəzi Qaryagin qəsəbəsi olmaqla, Qozluçay, Köndələnçay, Araz boyu və Füzuli-Ağdam magistral yolunun hər iki ətrafında olan kəndləri əhatə edib. 1959-cu ildə dahi şairimiz Məhəmməd Füzulinin 400 illik yubileyi münasibətilə rayonun adı dəyişdirilərək Füzuli adlandırılıb. Rayonun tərkibinə bir şəhər və 78 kənd daxildir. 23 avqust 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri daxil olmaqla, 58 kənd işğal olunub. Ermənistan silahlı qüvvələri ilə mübarizədə rayon sakinlərindən 663 nəfər şəhid olub, 181 nəfər əsir və itkin düşüb.

Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə 5 yanvar 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi əməliyyat nəticəsində Füzuli rayonunun 22 yaşayış məntəqəsi işğaldan azad olunub. O zaman işğaldan azad olunmuş ərazilərdə rayon əhalisinin 50 faizə qədəri yaşayırdı.

### İşğaldan azad edilmiş torpaqlara ilk səfər

Vətən müharibəsi başa çatdıqdan sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ilk səfərləri Cəbrayılla yanaşı, Füzuliyə də oldu. Bununla Prezident İlham Əliyev düşmən tapdağından xilas olmuş, azadlığına qovuşmuş daha bir şəhərdə üçrəngli bayrağımızı qaldırdı.

Həmin günü əlamətdar edən daha bir xüsusi hadisə isə Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulmasıdır. Bu yol isə bizi qələbəyə aparan Zəfər yoludur.

### Qarabağa açılan ilk hava yolu

Füzuli həm də Qarabağa açılan hava yolunun ilk ünvanıdır. Bu gün Şuşaya səfər etmək istəyənlər, xüsusən xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanı vasitəsilə rahat və qısa şəkildə bu bölgəyə çatırlar. Füzuli aeroportu işğaldan azad edilmiş ərazilərimizdəki ilk hava limanı olaraq mühüm əhəmiyyətə malikdir. Hava limanının əsas məqsədi qonaqların və sərnişinlərin Şuşaya gəlişini təmin etmək olsa da, iqtisadi, ticari baxımdan da perspektivləri var. Füzuli Beynəlxalq Hava Limanı qısa zaman kəsiyində - cəmi 8 aya tikilərək istifadəyə verilib. Hava limanı 2021-ci il oktyabrın 26-da Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılıb.

Aeroport istənilən tip hava gəmisini qəbul etmək imkanına malikdir, müasir infrastrukturla təchiz olunan terminal saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir.

### Quruculuq işləri geniş vüsət alıb

Vətən müharibəsindən sonra dövlətin prioritet istiqamətlərindən biri olan işğaldan azad olunmuş rayonlarda görülən yenidənqurma və bərpa işləri Füzulidə də sürətlə davam edir. Rayonda bütün infrastruktur yenidən qurulur. Füzuli həm də növbəti "ağıllı kənd" layihəsinin icra olunduğu rayondur. Füzulinin işğaldan azad olunmasından bir il sonra Prezident İlham Əliyev Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, həmçinin Füzuli şəhərinin təməlini qoydu.

Ötən ay isə dövlət başçısı tərəfindən yeni salınacaq Qaraxanbəyli kəndinin əsası qoyuldu. Kəndə Ermənistanın işğalı zamanı dağıdılmış Qaraxanbəyli və Merdinli kəndlərinin sakinləri yerləşdiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Gələn il yekunlaşdırılması nəzərdə tutulan birinci mərhələ 87 hektara yaxın ərazidə həyata keçiriləcək. Bu mərhələdə 404 ailənin, ümumilikdə 1861 nəfərin həmin kəndlərə köçürülməsi nəzərdə tutulur. 2027-2030-cu illəri əhatə edəcək ikinci mərhələ isə 230 hektara yaxın ərazidə icra olunacaq. Həmin dövr buraya 1075 ailənin, ümumilikdə 4093 nəfərin köçürülməsi nəzərdə tutulur. Əhalinin və evlərin sayı kəndin 20 illik perspektiv inkişafı nəzərə alınmaqla müəyyən edilib.

Qaraxanbəyli 44 günlük Vətən müharibəsinin ilk günündə azad olunan, ilk şəhid verdiyimiz kənddir. Elə bu baxımdan ölkə rəhbəri ikinci anım ilində Qaraxanbəylidə Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önündə şəhidləri ehtiramla andı, abidə önünə gül dəstələri qoydu. Həmin abidə şəhidlərimizin şərəfinə ucaldılıb. Bununla bağlı Prezident İlham Əliyev bildirmişdi: "İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın".

Füzuli həm də Özbəkistanla dostluğumuzun rəmzini özündə daşıyan şəhərdir. Burada Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq 960 şagird yerlik Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb binası tikilib istifadəyə verilib. Açılış mərasimində Şavkat Mirziyoyev şəxsən iştirak edib.

Füzulidə həmçinin Qazaxıstan tərəfindən "Kurmanqazı Uşaq Yaradıcılıq Mərkəzi" də tikilərək istifadəyə verilib. Açılış mərasimində Prezident İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev iştirak ediblər.

Füzuli şəhərinin Baş planı artıq təsdiqlənib. Plana əsasən, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.

### Füzuli qəhrəmanları

Füzuli şəhəri və kəndləri Silahlı Qüvvələrimizin ərazilərimizi işğaldan azad etmək üçün ayaq basdığı ilk torpaqlardır. İllərlə möhkəmlənmiş düşmən istehkamlarını yarmaq üçün ölümdən qorxmadan irəli atılan igidlərin qanı-canı hesabına bu gün azaddır bu torpaqlar. Onların cəsarəti, şücaəti hesabına bu gün Füzuli Şəhəri Gününü qeyd edə bilirik. Amma onların heç birinin qanı yerdə qalmadı. Azərbaycan ərazi bütövlüyünü və suverenliyi tam təmin etdi.

Vətən müharibəsində qəhrəmanlıq göstərən igidlərimiz isə qələbədən dərhal sonra dövlət başçısı tərəfindən mükafatlandırıldılar. Prezident İlham Əliyevin Vətən müharibəsindəki qələbə münasibətilə orden və medalların təsis edilməsi ilə bağlı sərəncamına əsasən, "Füzulinin azad olunmasına görə" medalı da təsis edildi. Dövlət başçısının müvafiq sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiklərinə görə 25325 hərbi qulluqçu təltif edildi.

### Rayonun iqtisadi potensialı böyükdür

Füzuli şəhərinin Vətən müharibəsində strateji mövqeyə malik yaşayış məntəqələrindən biri olduğunu qeyd edən Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Zəfər tariximiz məhz Füzulidən başlayıb: "Allah şəhidlərimizə rəhmət eləsin. Şəhidlik zirvəsinə ilk ucalanlar Füzuli rayonunda oldu. Füzuli strateji mövqeyə malik olduğuna görə, işğalçı Ermənistan ordusu məhz bu rayonda ciddi şəkildə möhkəmlənməyə çalışmışdı. Amma Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu Füzuli şəhəri də daxil olmaqla, Qarabağ və Şərqi Zəngəzurda olan bütün yaşayış məntəqələrini işğaldan azad etdi".

Deputat qeyd edib ki, 44 günlük müharibədə ölkəboyu həmrəylik, birlik müşahidə olunub. Savaşın ilk günlərindən başlayaraq vətəndaşlarımız hər bir formada orduya dəstək olmağa çalışırdı. Bu da təbii ki, ordu-xalq-iqtidar birliyini nümayiş etdirirdi.

V. Bayramov qeyd edib ki, rayon artıq bərpa və yenidənqurma mərhələsinə qədəm qoyub: "Hazırda Füzuli şəhərində 3000-dən çox keçmiş məcburi köçkün məskunlaşıb. Noyabr ayında Füzuli şəhərində yeni yaşayış komplekslərinin inşasına da başlanılacaq. Bu, o deməkdir ki, 2026-cı ildə də Füzuli rayonuna qayıdışın davamını görəcəyik. Eyni zamanda Füzuli şəhəri ilə yanaşı, rayonun digər kəndlərində də quruculuq işləri həyata keçirilir. Dövlətyarlı, Pirəhmədli və digər kəndlərdə tikinti işlərinin intensivləşdirilməsi planlaşdırılır. Bu istiqamətdə infrastrukturun formalaşdırılması üçün işlər davam etdirilir".

Deputat deyib ki, Füzuli böyük iqtisadi potensiala malik rayonlardan biridir. Həm aqrar sahədə, həm də xammal və tikinti materialları üzrə xammalı nəzərə alsaq sənaye cəhətdən də üstünlüyə malikdir. Füzuli rayonunda məskunlaşma ilə yanaşı, iqtisadiyyatın formalaşması və reinteqrasiyası müşahidə olunur. Bu da ondan xəbər verir ki, Füzuli rayonu yaxın zamanlarda yenidən Azərbaycan iqtisadiyyatına yüksək töhfə verən rayonlardan birinə çevriləcək. Bütövlükdə Füzuli rayonu Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq standartlara uyğun olaraq intensiv şəkildə qurulur, yaşayış məntəqələri yenidən salınır. Bu da uzun illər işğal altında qalan və dağıdılan Füzuli şəhərinə həyat qayıtması ilə yanaşı, rayon üçün yaxın gələcəkdə kifayət qədər böyük imkanlar vəd edir. Füzuli Qarabağın bir hissəsi olaraq Azərbaycan iqtisadiyyatına öz töhfəsini növbəti illərdə daha da artıracaq.




### Doğma yurda qayıdışın sevinci

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən Füzuli də öz əzəli sakinlərinə qucaq açıb. Şəhərdə görülən sürətli quruculuq işlərinin nəticəsidir ki, bu gün Füzuliyə köç karvanları yola salınır. Keçmiş məcburi köçkünlərin vətən, el-oba həsrətinə son qoyulur. Bu günədək 824 ailə - 3141 nəfər Füzuli şəhərində daimi məskunlaşıb. Köç prosesi mərhələli şəkildə davam edir.

Prezident İlham Əliyevin sərəncamına əsasən, işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilərək bu tarixlər bayrama çevrilib. 17 oktyabrda füzulililər Şəhər Günlərini qeyd edirlər. Şəhərə qayıdan sakinlər uzun illərdən sonra doğma ata-baba evlərində azad şəhərin təntənəsinə yığışırlar. Hələ rayonun neçə-neçə kəndinə köç olacaq, digər füzulililər də doğma yurda qayıdışın xoşbəxtliyini yaşayıb, sevinc göz yaşı axıdacaqlar. Qarabağ və Şərqi Zəngəzurun hər yerində həyat canlanacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Füzuli şəhərinin sürətli bərpası dövlətimizin iradəsinin təzahürüdür

"17 oktyabr tarixi ölkəmizin qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış mühüm gündür. Cənab Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli sərəncamına əsasən, 17 oktyabr Füzuli Şəhəri Günü kimi qeyd olunur. Bu qərar yalnız bir tarixi hadisənin rəsmiləşdirilməsi deyil, həm də Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi iradənin, ordumuzun qəhrəmanlığının və dövlətimizin siyasi gücünün təntənəsidir".



Bu fikirləri Milli Məclisin deputatı Fatma Yıldırım deyib. Deputat bildirib ki, Füzuli uğrunda aparılmış döyüşlər Vətən müharibəsinin ən ağır, eyni zamanda ən şanlı səhifələrindən biridir: "30 ilə yaxın müddətdə düşmən tərəfindən möhkəmləndirilmiş istehkamların yarılması, bir neçə müdafiə xəttinin aşılması Azərbaycan Ordusunun peşəkarlığının, döyüş qabiliyyətinin və ruh yüksəkliyinin bariz göstəricisidir. Hərbi ekspertlər Füzuli əməliyyatlarının mürəkkəbliyini etiraf edərək, bu uğurun qısa zamanda əldə edilməsini mümkün hesab etmirdilər. Lakin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz bu döyüşlərdə gücünü və iradəsini bir daha sübut etdi. Füzuli şəhərinin azad olunması təkcə hərbi baxımdan deyil, strateji əhəmiyyətinə görə də müharibənin gedişatında dönüş nöqtələrindən birinə çevrildi. Ordumuzun gücü qarşısında düşmən müqavimətini itirdi, silahlarını ataraq geri çəkilməyə məcbur oldu. Bu fakt Azərbaycan Silahlı Qüvvələrinin müasir, texnoloji və yüksək döyüş hazırlıqlı bir ordu olduğunu bütün dünyaya nümayiş etdirdi.

Bu əzəmətli zəfərin nəticəsi olaraq, 2020-ci il noyabrın 26-da "Füzulinin azad olunmasına görə" medalı təsis edildi və hərbi qulluqçularımız bu medal ilə təltif olundu. Bu, dövlətimizin öz qəhrəman övladlarına göstərdiyi yüksək dəyərin təzahürüdür".

Deputatın sözlərinə görə, Füzuli azad edilmiş ərazilər arasında minalarla ən çox çirklənmiş bölgədir. İlkin hesablamalara əsasən, burada 100 mindən artıq mina basdırılıb. Bu fakt Ermənistanın müharibə cinayətləri törətdiyini, insanlıq əleyhinə əməllər həyata keçirdiyini bir daha sübut edir. Minalanmış ərazilər təkcə insan həyatına deyil, həm də sosial-iqtisadi bərpa işlərinə ciddi maneələr yaradır. Dövlətimiz bu istiqamətdə beynəlxalq ictimaiyyətin diqqətini minalar probleminə yönəltməkdə davam edir.

Fatma Yıldırım qeyd edib ki, Füzuli şəhəri yenidən qurulur, dirçəlir, həyata qayıdır: "Böyük qayıdış prosesində Füzuli öncül yerdə durur və şəhərin sürətli bərpası dövlətimizin siyasi iradəsinin və güclü sosial siyasətinin təzahürüdür. Cənab Prezident İlham Əliyevin birbaşa nəzarəti və təşəbbüsü ilə Füzuli şəhərinin bərpası, infrastrukturların yenidən qurulması istiqamətində irimiqyaslı layihələr reallaşdırılır. 2023-cü ilin mart ayında "Füzuli şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiqlənmişdir. "Füzuli" yarımstansiyası, Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzi, Köndələnçay su anbarları kompleksi, Zəfər, Füzuli-Hadrut və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolları, eləcə də Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib. Bu mühüm infrastruktur layihələr Füzulinin yenidən dirçəlməsinə və Böyük qayıdışın sürətlənməsinə xidmət edir".

2023-cü ilin avqust ayından başlayaraq Füzuliyə keçmiş məcburi köçkünlərin qayıdışı reallaşmağa başladı. Fatma Yıldırımın sözlərinə görə bu, sadəcə, fiziki qayıdış deyil. Bu həm də milli kimliyimizə, tarixi yaddaşımıza və doğma yurdlarımıza dönüşün simvoludur. İndiyə qədər 824 ailə - 3141 nəfər füzulili doğma torpaqlarına qayıdıb. 2026-cı ilin sonunadək 22 min insanın yalnız Füzuli rayonunda məskunlaşması nəzərdə tutulur. Bu, dövlətimizin strateji baxışının və planlı şəkildə həyata keçirilən sosial-iqtisadi inkişafın nəticəsidir.

Böyük qayıdış çərçivəsində həyata keçirilən layihələr beynəlxalq əməkdaşlıq ruhunu da özündə əks etdirir. Qardaş Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Füzulidə yüksək standartlara cavab verən və geniş infrastruktura malik Mirzə Uluqbəy adına məktəbin inşası bu birliyin bariz nümunəsidir. Qardaş Qazaxıstanın dəstəyi ilə Füzulidə inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi mədəni infrastruktur olmaqla yanaşı, iki ölkə arasında mənəvi körpünün, dostluğun və ortaq dəyərlərin simvoludur.

Deputat bildirib ki, Füzuli bu gün həm inkişafın, həm də milli iradənin timsalına çevrilib. "Cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti və güclü liderliyi nəticəsində Böyük qayıdış gerçəyə çevrilir. Hər bir köç karvanı, inşa edilən məktəb və mədəniyyət ocağı bu torpaqların dirçəlişini müjdələyir. Biz bir millət olaraq bundan həm qürur duyuruq, həm də yeni reallıqlar fonunda işğaldan azad olunmuş torpaqlarımızda davamlı sülh, rifah və inkişaf üçün birgə çalışırıq. Füzuli xalqımızın gücünü, dövlətimizin iradəsini və regional həmrəyliyi nümayiş etdirən parlaq örnəkdir. Füzuli Şəhəri Günü münasibətilə xalqımızı səmimi-qəlbdən təbrik edir, qəhrəman şəhidlərimizi dərin ehtiramla yad edir, qazilərimizə şəfa diləyirəm", - deyə Fatma Yıldırım bildirib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



# ABŞ-dən Çinə qədər...

## Bütün siyasi platformalarda Azərbaycan nüfuzlu dövlət kimi qəbul olunur

**Beynəlxalq münasibətlər sistemində dövlətlərin yeri və rolu çoxsaylı siyasi və iqtisadi faktorlarla müəyyən olunur. Bu faktorların arasında prioritet istiqamətlər dövlətin iqtisadi və sosial inkişaf göstəriciləri, yürütdüyü xarici siyasətin məzmunu, özünün milli maraq və mənafelərini təminetmə dərəcəsi, habelə regional və qlobal proseslərdə iştirakının səviyyəsidir. Bu amillər həm də dövlətin və ona rəhbərlik edən şəxsin nüfuzunu müəyyən edən meyarlar kimi özünü göstərməkdədir.**
**Respublikamızın bütün bu qeyd olunan istiqamətlər üzrə göstəriciləri qürurvericidir.**

### Ölkəmizin nailiyyətləri nümunəyə çevrilib

Bu gün dünya Azərbaycanı inkişaf göstəricilərini davamlı şəkildə yüksəldən, müstəqil xarici siyasət yürüdən, milli maraqlarını qətiyyətlə təmin edən, yalnız regionda deyil, qlobal səviyyədə narahatlıq doğuran məsələlərin yoluna qoyulmasına töhfələr verən dövlət kimi tanıyır. Müstəqil xarici siyasəti respublikamızı dünyanın bütün siyasi mərkəzləri ilə əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Öz enerji siyasəti ilə Xəzərdən hasil olunan neft və qazı dünya bazarlarına çıxaran Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biridir. Eyni zamanda respublikamız qlobal miqyasda sülhün və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edir, barışdırıcı missiya həyata keçirir. Orta gücə çevrilən Azərbaycan bu gün yalnız regionda deyil, qlobal müstəvidə də baş verən proseslərdə, dünyanı narahat edən aktual məsələlərin həllində fəal iştirak edir.

Bütün bunların nəticəsidir ki, Azərbaycan regionun aparıcı dövlətidir. Eyni zamanda ölkəmiz dünyanın əsas siyasi qütblərinin Cənubi Qafqazdakı siyasi-iqtisadi tərəfdaşıdır. Azərbaycanın həm də qlobal miqyasda söz sahibi olan dövlət kimi qəbul edilməsi qürurdoğuran həqiqətdir.

Azərbaycanı dünyaya tanıdan ən mühüm faktorlardan biri respublikamızın hər zaman tərəfdaşlığa sadiq olması, dünyada və regionda əməkdaşlığın daha da inkişafına xidmət edən tədbirlər həyata keçirməsidir. Təsadüfi deyil ki, bir sıra Avropa dövlətləri özlərinin enerji təhlükəsizliklərinin təminatında məhz Azərbaycana güvənirlər. Eyni zamanda respublikamızın enerji və nəqliyyat layihələri regionda və daha geniş arenada dövlətlərarası əməkdaşlığı daha da stimullaşdırır.

Azərbaycanın nüfuzlu dövlət kimi statusunu yüksəldən başqa bir amil isə işğal altında olan torpaqlarını müharibə yolu isə azad etməsidir. Artıq 5 ildir ki, dünyada həm də qalib, ərazi bütövlüyünü bərpa edən dövlət kimi tanınırıq. Respublikamızın bu uğurları dünyada nümunəyə çevrilib.

### Azərbaycan diplomatiyasının qlobal uğuru

Bütün bu nailiyyətlərimizin müəllifi olan Prezident İlham Əliyev isə dünyanın sayılıb-seçilən liderləri ilə bir sırada dayanır, siyasi platformalarda böyük ehtiram və hörmətlə qarşılanır. Bunu dövlətimizin başçısının son dövrlərdə iştirak etdiyi nüfuzlu tədbirlər də təsdiqləyir. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyev bu tədbirlərdə dünyanın aparıcı siyasi qütblərinin liderlərinin dəvəti ilə iştirak edib.

Məsələn, bir müddət əvvəl Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində iştirak etdi. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının üzvü deyil və bu tədbirə dəvət olunması Prezident İlham Əliyevə olan yüksək qlobal ehtiramın təcəssümüdür.

Oktyabrın əvvəllərində isə Prezident İlham Əliyev Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə siyasi və strateji müzakirələr üçün yaradılmış əlaqələndirmə platforması olan Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etdi. Bu tədbir çərçivəsində Prezident İlham Əliyevin qarşı tərəfin müraciəti ilə keçirdiyi görüşlər bir daha göstərdi ki, Azərbaycanın həm regionda, həm də qlobal səviyyədə oynadığı mühüm rol Avropa liderlərinin də diqqət mərkəzindədir və bu, onların respublikamızla əməkdaşlığı daha da dərinləşdirməkdə maraqlı olduqlarını bir daha təsdiq edir.

Oktyabrın 13-də isə Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində iştirak etdi. Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edən Müzəffər Ali Baş Komandan, həm də regionda sülhü təmin edən təcrübəli siyasətçidir. İlham Əliyevin liderliyi ilə Cənubi Qafqazda sülhün təmin olunması ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən təqdir olunur, alqışlanır. Dövlətimizin başçısının Yaxın Şərq Sülh Sammitinə dəvət olunması həm ABŞ Prezidenti Donald Trampın İlham Əliyevə olan xüsusi ehtiramının göstəricisi, həm də Azərbaycanın sülh gündəliyinin qlobal miqyasda xüsusi maraqla qarşılanmasının təsdiqidir.

Oktyabr ayında Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü və MDB Dövlət Başçıları Şurasının Düşənbədəki geniş tərkibdə iclası da Azərbaycanın regional proseslərdə və dövlətlərarası əməkdaşlıq məsələlərinin təşviq olunmasında aparıcı rolunu nümayiş etdirdi. Bu tədbirlər də bir daha təsdiq etdi ki, Azərbaycan Prezidentinin müzakirə olunan məsələlərlə bağlı fikirləri, yanaşmaları əməkdaşlıq əlaqələrinin güclənməsinə xidmət edir.

Ən əsası bu tədbirlər göstərdi ki, Prezident İlham Əliyev dünyanın nüfuzlu liderlərinin sırasında dayanıb, Azərbaycan isə regional gücdən qlobal aktora çevrilib. ABŞ, Çin kimi dövlətlərin rəhbərləri, habelə Avropa İttifaqı Azərbaycanla əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirlər. Ona görə ABŞ-dən Çinə qədər bütün siyasi platformalarda Azərbaycan nüfuzlu dövlət kimi qəbul olunur.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Ölkəmizin sülh təcrübəsi öyrənilir

### Azərbaycan Prezidentinin qlobal problemlərin müzakirə olunduğu sammitlərə dəvət edilməsi bunu təsdiqləyir

"Son illərə nəzər yetirdikdə Azərbaycanın xarici siyasətində davamlı uğurların şahidi oluruq. Dövlətimiz milli maraqlara nail olmaq üçün qarşıya məqsədlər qoyub, istiqamətlər müəyyənləşdirib".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, məqsəd hədəflərimizə nail olmaqdan tutmuş iqtisadi amillərin inkişafına qədər böyük bir spektri əhatə edən regional təhlükəsizlik arxitekturasını təmin etməkdir. Qarşıya qoyulan hədəflərə çatmağın nəticəsidir ki, ölkəmiz bu prosesin arealını genişləndirir. Belə ki, bu gün Azərbaycan sadəcə regionla kifayətlənməyib, beynəlxalq təhlükəsizlik arxitekturasının yenidən qurulmasında da fəal iştirak edir. Nəqliyyat və kommunikasiyaların açılması, iqtisadi inkişaf, region xalqlarının rifah halının yüksəlməsi kimi missiyanı Azərbaycan yerinə yetirir və ən çətin işlərin belə öhdəsindən layiqincə gəlir. Elə buna görədir ki, dünyada Azərbaycanın təcrübəsi öyrənilir.



A.Badamov qeyd edib ki, Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən "öz işini bilən güclü lider" kimi xarakterizə olunması tam reallıqdır: "Fövqəldövlətin liderinin Müzəffər Ali Baş Komandanımızın ünvanına dediyi sözlər xalqımızın fəxarət hissi yaşamasına səbəb oldu. Çünki olduqca mürəkkəb bir region olan Cənubi Qafqazda uğur qazanmaq, önə çıxmaq, bölgənin inkişafına istiqamət vermək heç də asan iş deyil. Bütün bunlar məhz Azərbaycan liderinin səylərinin nəticəsidir".

Qloballaşma ilə səciyyələnən yeni dövrdə məsafələrin azaldığını deyən deputat əlavə edib ki, bu məsafələr siyasi və iqtisadi maraqların təmin edilməsində fəal və inkişafyönümlü xarici siyasət tələb edir. Çünki dünya siyasəti artıq qapanma deyil, açılma tələb edir, bunu diktə edir. Gücün konsolidasiyası vacibdir, təhlükəsizliyə də məhz bu yolla nail olmaq mümkündür. Qlobal siyasi iqtisadiyyatın yaranması və xarici siyasət istiqamətlərinin prinsiplərində baş verən əsaslı dəyişikliklər dövlətin xarici siyasət strategiyalarının iqtisadi güc üzərində danılmaz təsirlərini əks etdirir. Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, qlobal iqtisadiyyatdakı mövqeyini yaxşılaşdırmaq üçün önəmli addımlar atır. Suriyaya qaz nəql etməyimiz, təchizat marşrutlarının şaxələndirilməsi işi də qabaqcıl sıralarda dayandığımızın göstəricisidir.

A.Badamov vurğulayıb ki, Azərbaycan lideri praqmatikdir, təşəbbüskardır və inkişafyönümlü xarici siyasət yürüdəndir: "Məhz bunun nəticəsidir ki, dövlət başçımız fərqli coğrafiyalarda, müxtəlif formatlı görüşlərdə iştirak edir. Bu iştirak xüsusi dəvətlərin nəticəsində reallaşır. İstər bu il 1-2 oktyabr tarixində "Avropa Siyasi Birliyi"nin Kopenhagendə keçirilən 7-ci Zirvə Görüşündə, istər 6-7 oktyabrda Türk Dövlətləri Təşkilatının Qəbələ sammitində, ardınca 9-10 oktyabr tarixində Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının Düşənbədə keçirilən sammitində ölkəmizin rəhbərinin iştirakı, nəhayət, 12 oktyabrda ABŞ Prezidenti Donald Trampın və bir neçə ölkə liderinin qatıldığı Misirin Şarm əl-Şeyx sammitinə Azərbaycan Prezidentinin də dəvət olunması ölkəmizin artan qlobal nüfuzundan xəbər verir. Bu iki həftə ərzində Prezidentin dörd fərqli coğrafiyada iştirak etdiyi dördüncü sammitdir".

Deputat deyib ki, qlobal platformalarda Azərbaycanın siyasi baxışına ciddi zərurət yaranıb. Dövlət başçımızın müharibəöncəsi və sonrasında tətbiq etdiyi strategiyaların öyrənilməsi, ondan bəhrələnməsi üçün qarşı tərəflərin təşəbbüskarlıq göstərdiklərinin şahidiyik. Rusiya Prezidenti Vladimir Putinlə, Fransa Prezidenti Emmanuel Makronla keçirilən görüşlər isə ən dərin düyünlərin açıldığından, mürəkkəb məsələlərin həll olunmasında Azərbaycan liderinin siyasi savadı qədər şəxsi keyfiyyətlərindən də xəbər verir. Dünya liderləri Azərbaycan Prezidenti ilə görüşlər keçirməyə təşəbbüs göstərirlər. Hər bir beynəlxalq tədbirdə dövlət başçımıza yüksək ehtiramla yanaşılır. Azərbaycan lideri mövqeyini, sözünü təsdiqləyən dünya miqyaslı siyasətçidir.

A.Badamov sonda qeyd edib ki, Azərbaycan xarici siyasətdə aqressiv strategiyalardan uzaq qurucu və tarixi addımlar atır: "Bu yolda qarşılıqlı hörmət prinsipini əsas tutan aktorlarla münasibətlərin daha da dərinləşdirilməsi səylərinin möhkəmləndirilməsi davam etdiriləcək. Yaxın Şərq yenidən qurulur. Sammitdə də Misir Prezidenti Əbdül Fəttah əs-Sisi tərəfindən ifadə edildiyi kimi, "əzablı səhifəni bitirən tarixi mərhələ" başlayır. Bu mərhələdə zəngin təcrübəmizdən istifadə olunması Azərbaycan liderinin ardıcıl səylərinin nəticəsidir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Şəhərsalma sahəsindəki təcrübəmizə beynəlxalq maraq artır

## III Azərbaycan Milli Şəhərsalma Forumu bunun növbəti təsdiqi oldu

**Bu gün - oktyabrın 17-də III Azərbaycan Milli Şəhərsalma Forumu (NUFA3) başa çatır. Oktyabrın 15-də "İqlimə davamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıq və innovativ həllərin imkanlarından istifadə" şüarı altında Xankəndidə start götürən üçgünlük tədbirin iki günü ərzində orada mövzu ətrafında geniş söhbətlər aparılıb. Bu gün isə forum Bakıda bir sıra müzakirələrin keçirilməsi ilə yekunlaşacaq.**

Prezident İlham Əliyevin forumun iştirakçılarına məktub ünvanlaması bu tədbirin önəminə bir daha diqqət çəkir. Məktubda qeyd edildiyi kimi, forumun Xankəndi şəhərində keçirilməsi xüsusi məna daşıyır. Çünki uzun illər işğal altında qalmış bu şəhər indi sülhün, bərpanın və dirçəlişin rəmzidir: "Xankəndidə icra olunan infrastruktur layihələri şəhərin müasir, ağıllı və innovativ şəhər konsepsiyasına uyğun inkişafını təmin edir.

Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirilən quruculuq prosesi təkcə şəhərsalma və infrastrukturun inkişafı ilə deyil, regionda uzunmüddətli sülh və əməkdaşlığın qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir".

Qeyd edək ki, son üç il ərzində Milli Şəhərsalma Forumu sıradan bir tədbir deyil, davamlı şəhərsalma sahəsində dialoq, əməkdaşlıq və ortaq irəliləyiş üçün institusional bir platformaya çevrilib. Artıq ənənə halını almış bu forum şəhərsalma sahəsində milli, regional və beynəlxalq tərəfdaşları bir araya gətirərək təcrübə mübadiləsi aparmaq, yeni təşəbbüslər formalaşdırmaq və əməkdaşlığı gücləndirmək üçün məkan rolunu oynayır.

Budəfəki foruma 64 ölkədən 400-ə yaxın iştirakçının qatılması da özlüyündə tədbirin əhəmiyyətini təsdiqləyən faktdır. Təsadüfi deyil ki, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru xanım Anaklaudiya Rossbax III Azərbaycan Milli Şəhərsalma Forumunun qlobal şəhərsalma gündəliyinin həyata keçirilməsi və dayanıqlı şəhərlərin qurulması istiqamətində mühüm çoxtərəfli əməkdaşlıq fürsəti olduğunu, təkcə Azərbaycan üçün deyil, bütün region və dünya üçün mühüm əhəmiyyət daşıdığını bildirib. İcraçı direktor həmçinin 2026-cı ildə ölkəmizin evsahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına hazırlıq proseslərində Azərbaycan hökumətinin fəaliyyətindən və dəstəyindən razılığını ifadə edib.

UN-Habitat-ın icraçı direktoru deyib: "Qlobal enerji istehlakının 75 faizdən, istixana qazı emissiyalarının 70 faizdən çoxu şəhərlərdə formalaşır. Bununla belə iqlim dəyişikliyinin təsirləri də ən çox şəhərlərdə hiss olunur - temperaturun artmasından və dəniz səviyyəsinin yüksəlməsindən tutmuş daşqınlara və su qıtlığına qədər. Buna baxmayaraq, şəhərlərin ehtiyacları daxili və qlobal iqlim maliyyələşməsində kifayət qədər təmsil olunmur. Biz təkcə yumşaldıcı tədbirlərdə geridə qalmırıq, həm də ən çox ehtiyac duyulan yerlərdə davamlılığa az investisiya qoyuruq. Şəhər artımının sürətini nəzərə alsaq, bu, xüsusilə narahatedicidir".



O həmçinin bildirib ki, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Şəhər davamlılığını təmin etmək üçün atdığımız addımlar bizi yüksək emissiyalı gələcəyə kilidləyəcək, yoxsa inklüziv, aşağı karbonlu şəhər inkişafı yolunu açacaq - III Azərbaycan Milli Şəhərsalma Forumu kimi tədbirlər məhz bu məqsədə xidmət edir. 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası öhdəlikləri yeniləmək, irəliləyişi izləmək və tərəfdaşlıqları kataliz etmək üçün qlobal yoxlama məkanı olacaq.

Xatırladaq ki, ilk forum 2022-ci ildə keçirilib, hökumət nümayəndələri, ekspertlər və beynəlxalq tərəfdaşları bir araya gətirərək milli şəhərsalma çərçivəsini formalaşdırmağa imkan verib. Bu təməlin üzərində 2023-cü ildə keçirilən ikinci forum isə əməkdaşlıq mühitini daha da gücləndirib və innovasiyaların təşviq edilməsi ilə yanaşı, Yeni Şəhər Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu təmin edib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev növbəti Milli Şəhərsalma Forumunun dayanıqlı şəhər inkişafı sahəsində təcrübə mübadiləsi üçün geniş imkanlar yaratdığını və Azərbaycanın urbanizasiya siyasətini beynəlxalq standartlara uyğunlaşdırmaq təşəbbüsü baxımından əhəmiyyətini vurğulayıb. Belə ki, Prezident İlham Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində ölkəmizdə Bakıdan Qarabağadək, bütün bölgələrədək genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirilir. Bu transformasiya Azərbaycanın dayanıqlı inkişaf, innovativ şəhərsalma və inklüziv böyüməyə olan sadiqliyini əks etdirir.

Qarabağ demişkən, bu gün Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur.

Bu faktlar dövlətimizin başçısının forum iştirakçılarına məktubunda da öz əksini tapıb. İştirakçıların diqqətinə çatdırılıb ki, əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb. Bu gün Böyük qayıdış proqramı çərçivəsində artıq 60 minə yaxın insan bu ərazilərdə yaşayır, işləyir və təhsil alır.

Müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Başqa sözlə, burada son dörd il ərzində 3 yeni beynəlxalq hava limanı, avtomobil və magistral yolları, yeni dəmir yolu infrastrukturu inşa olunub, həmçinin yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam edir.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində enerji infrastrukturunun yenidən qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi önəm verilir. Bu ərazilər dövlətimizin başçısı tərəfindən "yaşıl enerji" zonası elan edilib. Hazırda burada çoxsaylı bərpaolunan enerji layihələri həyata keçirilir. "Ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq olunur. Çəkilən yeni yollar Qarabağ və Şərqi Zəngəzurun paytaxtla və ölkənin digər əraziləri ilə birbaşa əlaqələndirilməsinə xidmət edir.

Təsadüfi deyil ki, Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübəyə beynəlxalq aləmdə də maraq göstərilir. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır. Elə bu səbəblərdən də gələn il şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərdən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərara alınıb. Müvəffəqiyyətlə keçən III Azərbaycan Milli Şəhərsalma Forumu növbəti mötəbər forumun uğuruna da təminat verir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Fəal və uğurlu diplomatiya

## Avropa İttifaqı və ATƏT Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlıdırlar

Azərbaycanın fəal diplomatiya siyasəti təkcə regionda deyil, dünya miqyasında da əhəmiyyətli nəticələr verir. Bu yanaşma ölkəmizin beynəlxalq aləmdə mövqeyini möhkəmləndirir, iqtisadi və siyasi əlaqələri inkişaf etdirir və ümumilikdə Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Azərbaycan fəal diplomatiyasını beynəlxalq hüququn, sülhün və əməkdaşlığın təməl prinsiplərinə əsaslandıraraq, dünya xalqları üçün nümunə kimi göstərilir.

Əminliklə deyə bilərik - Azərbaycan müasir dövrün tələb etdiyi fəal diplomatiya siyasətini uğurla həyata keçirir. Ölkəmiz dünya səhnəsində artan təsiri və strateji mövqeyi ilə tanınır. Azərbaycan dövlətinin yürütdüyü diplomatik siyasət regionda və beynəlxalq arenada sabitlik və təhlükəsizliyin təmin olunmasında müstəsna rol oynayır.

Oktyabrın 16-da Prezident İlham Əliyev Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul edərkən avropalı diplomat bu məsələyə xüsusi olaraq toxunub.

Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərindən bəhs etdi. Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğuladı. O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxundu, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd etdi.

Mariyana Kuyundziç həmçinin Avropa İttifaqının ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirdi.

Oktyabrın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Finlandiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonen arasında keçirilən görüşdə də prioritet istiqamətlər, ATƏT-in qarşısında duran çağırışlar, Azərbaycan-ATƏT əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, eləcə də bölgədə postmünaqişə dövründə vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, Finlandiyanın sədrliyi Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi dövrə təsadüf edir. Bu şəraitdə ATƏT-in çoxtərəfli platforma kimi çevik şəkildə yeni reallıqlara uyğunlaşmasının, öz aktuallığını və funksionallığını qoruyub saxlamasının əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan-Ermənistan sülh prosesi də müzakirə edilib. Nazir Ceyhun Bayramov bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin tarixi görüşünün və imzalanmış Birgə Bəyannamənin əhəmiyyətini qeyd edib. Sülh sazişinin imzalanması istiqamətində atılacaq növbəti addımlar və Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması zərurəti bir daha diqqətə çatdırılıb. Eyni zamanda Zəngəzur dəhlizi - "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası baxımından əhəmiyyəti vurğulanıb.

Tərəflər postmünaqişə dövründə reallıqları nəzərə alaraq, funksional əhəmiyyətini itirmiş Minsk qrupu, Fəaliyyətdə olan sədrin xüsusi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupu kimi ATƏT təsisatlarının fəaliyyətinin sentyabrın 1-dən dayandırılması barədə qərarı müsbət qiymətləndiriblər.

Nazir Ceyhun Bayramov ATƏT çərçivəsində əməkdaşlıq layihələrinin həyata keçirilməsi istiqamətində mövcud maneələrdən bəhs edərək, Azərbaycan Əməkdaşlıq Proqramının icrasına start verilməsinin vacibliyini qeyd edib. O, xüsusilə minalardan təmizləmə, ekoloji vəziyyətin qiymətləndirilməsi və kibertəhlükəsizlik sahələrində praktiki əməkdaşlığın inkişaf etdirilməsinin faydalı olacağını vurğulayıb.

Ümumiyyətlə, Azərbaycan beynəlxalq əlaqələrində strateji tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək istiqamətində mühüm addımlar atır. Bu çərçivədə ATƏT və Avropa İttifaqı ilə əlaqələrin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hər iki təşkilat Azərbaycanın regional və beynəlxalq siyasətində mühüm rol oynayır və ölkəmizlə əməkdaşlıq sahələrini genişləndirmək niyyətindədir.

ATƏT və Avropa İttifaqı ilə əməkdaşlığın inkişafı Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsində və regionda sabitliyin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu əməkdaşlıq həmçinin Azərbaycan üçün iqtisadi və siyasi inkişafın gücləndirilməsi, sosial və hüquqi islahatların həyata keçirilməsi və beynəlxalq əlaqələrin daha da genişləndirilməsi baxımından yeni imkanlar açır. Azərbaycan ATƏT və Avropa İttifaqı ilə əməkdaşlıqda tərəflər üçün faydalı, qarşılıqlı hörmət və etimada əsaslanan bir gələcək qurmaq niyyətindədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Qoşulmama Hərəkatının Kampala Nazirlər İclasında təmsil olunub

Oktyabrın 15-16-da Uqandanın paytaxtı Kampala şəhərində Qoşulmama Hərəkatının (QH) 19-cu Nazirlər İclası keçirilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Kampala Nazirlər İclası çərçivəsində beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, davamlı inkişafın təşviqi, Hərəkatın institusional potensialının artırılması, eləcə də Yaxın Şərqdə vəziyyət və digər aktual gündəm məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tədbirdə Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.



Samir Şərifov toplantının açılış seqmentində çıxış edərək ölkəmizin sədrlik dövründə həyata keçirdiyi təşəbbüslər, o cümlədən Hərəkatın institusional inkişafına verdiyi töhfələrə toxunub, habelə üzv ölkələr arasında həmrəyliyin və birliyin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir müavini Azərbaycan-Ermənistan normallaşma gündəliyi üzrə son irəliləyişlər və işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə iştirakçılara məlumat verib.

Hərəkatın keçmiş sədri və hazırkı Troyka üzvü qismində ölkəmiz həmçinin QH-nin Fələstin üzrə Nazirlər Komitəsinin iclasında təmsil olunub. Nazir müavini S.Şərifov Azərbaycan Prezidentinin oktyabrın 13-də Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitində iştirakına vurğu edərək, ölkəmizin Zirvə görüşünə dəvət alan azsaylı Hərəkat üzvlərindən biri olduğuna və bunun əhəmiyyətinə, iki dövlət prinsipi əsasında Yaxın Şərqdə davamlı sülhün və təhlükəsizliyin tez bir zamanda bərqərar olmasının vacibliyinə, eləcə də ölkəmizin regiondakı humanitar təşəbbüslərinə diqqət çəkib.

İclas çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirilib, Azərbaycan və Uqanda hökumətləri arasında diplomatik və xidməti pasport sahibləri, Azərbaycan və Somali hökumətləri arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında sazişlər imzalanıb.

Qeyd edək ki, bu sənədlərin imzalanması Azərbaycanın Afrika ölkələri ilə ikitərəfli münasibətlərinin genişləndirilməsinə, qarşılıqlı səfərlərinin asanlaşdırılmasına və diplomatik əlaqələrin daha da inkişafına xidmət edir.

# Polis Akademiyasında bilik, intizam və xidmət təhsilin meyarıdır



Daxili İşlər Nazirliyinin Polis Akademiyası bu gün ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından birinə çevrilib. Bunu 2025/2026-cı tədris ili üçün keçirilən qəbul prosesi bir daha təsdiqləyib. Xüsusi təyinatlı bu ali təhsil müəssisəsində qəbul planı üzrə nəzərdə tutulmuş yerlər tam dolub.



DİN-in Mətbuat xidmətindən bildirilib ki, orta məktəblərdə keçirilən görüşlər, təqdimatlar və maarifləndirici tədbirlər nəticəsində gənclər Polis Akademiyasını təkcə nüfuzlu ali təhsil müəssisəsi kimi deyil, həm də təhlükəsizliyin, əmin-aman gələcəyin və Vətənə xidmətin ünvanı kimi görürlər. Respublikanın demək olar ki, bütün ümumtəhsil müəssisələrini, o cümlədən ən ucqar kəndlərdə yerləşən tam orta məktəbləri əhatə edən təşviqat tədbirləri nəticəsində daxili işlər orqanlarinin təhsil sisteminə maraq ildən-ilə artmaqdadır.

2024/2025-ci tədris ilində qəbul üçün 2250 nəfər müraciət etdiyi halda bu tədris ilində həmin rəqəm 2938 nəfərə yüksəlib. Onlardan 550 nəfər hüquqşünaslıq, 25 nəfər isə informasiya təhlükəsizliyi ixtisası üzrə qəbul olunub.

Ən yüksək bal hüquqşünaslıq ixtisasında 675,3, informasiya təhlükəsizliyi ixtisasında isə 675,7 olub. Minimum keçid balları da ötən illərlə müqayisədə yüksələrək, müvafiq olaraq 462,4 və 568 bal təşkil edib. Ümumilikdə 72 nəfər 600 baldan çox nəticə göstərib.

Məlum olduğu kimi, Polis Akademiyasına qəbul yalnız test imtahanı ilə məhdudlaşmır. Namizədlər əvvəlcə fiziki hazırlıq sınaqları, psixoloji və bilik testləri, daha sonra isə Seçmə Komissiyadan keçirlər. Bu sistem yalnız bilikli deyil, həm də güclü, dözümlü və sağlam düşüncəli gənclərin seçilməsinə imkan yaradır. Şəffaf imtahan prosesi sosial mənşəyindən asılı olmayaraq, hər bir istedadlı gəncə bərabər imkanlar təqdim edir.

Gənclər arasında daxili işlər orqanlarında xidmətə və təhsilə marağın artırılması məqsədilə təşviqat kampaniyaları davam etdirilir. Şagirdlərlə keçirilən maarifləndirici görüşlərdə hüquq-mühafizə sistemində xidmətin əhəmiyyəti, vətənpərvərlik dəyərləri, qəbul şərtləri, imtahan mərhələləri və tədris prosesi barədə ətraflı məlumat verilir.

Qeyd edək ki, kursantların sayının artması akademiyanın maddi-texniki bazasının da genişləndirilməsini zəruri edib. Akademiyada təhsil korpusları, yataqxanalar, tədris laboratoriyaları tikilib, geyim və qidalanma təminatı yenilənib, infrastruktur tam şəkildə müasirləşdirilərək gənclərin hərtərəfli hazırlığı üçün əlverişli şərait yaradılıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## 17 Oktyabr Ümumdünya Yoxsulluqla Mübarizə Günüdür

# Davamlı inkişaf yoxsulluq səviyyəsini minimuma endirir

17 oktyabr tarixi 1992-ci ildən etibarən dünyada Ümumdünya Yoxsulluqla Mübarizə Günü kimi qeyd edilir. Məqsəd dünyada yoxsulluğa qarşı milli, regional və beynəlxalq səviyyələrdə mübarizə səylərini birləşdirməkdir.

2000-ci ilin sentyabrında Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatının (BMT) təşkilatçılığı ilə keçirilən Minilliyin sammitində 150-yə yaxın ölkənin rəhbəri tərəfindən Minilliyin İnkişaf Məqsədlərini əks etdirən Birgə Bəyannamə imzalanıb.

Minilliyin Bəyannaməsində BMT-yə üzv dövlətlər sülh və təhlükəsizlik sahəsində Minilliyin İnkişaf Məqsədlərinə çatmağı öhdələrinə götürüblər. Həmin zaman bu bəyannaməni imzalayan ölkə rəhbərlərindən biri də Ulu Öndər Heydər Əliyev olub.

Böyük siyasi xadim Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi nəticəsində siyasi hakimiyyətə qayıdışı ilə qurtuluş yoluna çıxardığı Azərbaycanı həm də düşdüyü sosial-iqtisadi böhranın çəngindən xilas edərək, hərtərəfli inkişaf mərhələsinə yüksəltdi. Müharibə vəziyyəti, işğal faktı ilə üz-üzə qalan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycanı sözügedən çətin dövrdə xilas edən Ulu Öndər əhalinin sosial müdafiəsini gücləndirdi, aztəminatlı vətəndaşlara dövlət qayğısını dəfələrlə artırdı.

### Düzgün hədəf, uğurlu nəticə

Minilliyin Bəyannaməsinə qoşulmuş ölkəmizdə yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlərin həyata keçirilməsi ötən illər ərzində Prezident İlham Əliyevin gündəliyindəki vacib prioritetlərdən biri olub.

"2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq olunaraq icra edilib. Adıçəkilən dövlət proqramlarının uğurla icra olunması sayəsində ölkəmizdə hərtərəfli inkişafa nail olunub və yoxsulluğun ildən-ilə azalmasına gətirib çıxarıb. Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabrında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub.

Dayanıqlı İnkişaf Məqsədləri gələcək nəsillərin öz ehtiyaclarını qarşılamaq imkanına xələl gətirmədən bugünkü ehtiyacların qarşılanmasına imkan verən inkişafı nəzərdə tutur. Bu məqsədlər yoxsulluğa və aclığa son qoymaq, yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq, hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək, gender bərabərliyinə nail olmaq, dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək, möhkəm infrastruktur yaratmaq, innovasiyaların inkişafına dəstək vermək, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək, su ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək üçün ölkələrin qlobal fəaliyyət istiqamətlərini müəyyən edəcək yeni inkişaf gündəliyinin təməlini qoyub. Bununla da Dayanıqlı İnkişaf Məqsədləri, əslində, insanlar və planet üçün inklüziv, dayanıqlı və möhkəm əsaslı gələcək qurmaq üçün birgə razılaşdırılmış səylər göstərməyə çağırır.

Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı fərmanla "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Milli Əlaqələndirmə Şurasının əsas vəzifələri qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin, eyni zamanda onlara dair göstəricilərin müəyyənləşdirilməsi, habelə ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasıdır. Ötən dövr ərzində Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlər BMT tərəfindən yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində əldə olunan hərtərəfli inkişaf Azərbaycanda ifrat yoxsulluq səviyyəsinin minimum həddə düşməsinə rəvac verib.

Hələ 22 yanvar 2007-ci ildə Nazirlər Kabinetinin 2006-cı ilin yekunlarının müzakirə edildiyi və eyni zamanda 2007-ci ildə görüləcək işlər haqqında fikir mübadiləsi aparılan iclasında Prezident İlham Əliyev bu istiqamətdə əldə olunan uğurlu göstəricini diqqətə çatdırmışdı: "Mən bir göstəricini də böyük sevinc hissi ilə bildirmək istəyirəm. 2006-cı ilin yekunlarına görə, Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı 20 faizə düşmüşdür. Keçən il Azərbaycan əhalisinin 29 faizi, ondan əvvəlki il 44 faizi, 2003-cü ildə isə 49 faizi yoxsulluq şəraitində yaşayıb, indi isə 20 faizdir. Beynəlxalq maliyyə qurumları ilə birlikdə icra edilən proqram, yoxsulluğun azaldılmasına yönəldilmiş proqram 2015-ci ildə başa çatmalıdır".

Azərbaycan rəhbəri daha sonra əminliklə bildirmişdi: "Mən şübhə etmirəm ki, biz daha da qısa müddət ərzində Azərbaycanda yoxsulluğun tamamilə aradan qaldırılmasına nail olacağıq. Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır və olmayacaqdır". Bəli, güclənən sosial rifah nəticəsində artıq Azərbaycanda yoxsuluğun səviyyəsi minimuma enib.

### Sosial siyasətin əsas istiqamətlərindən biri

"Azərbaycan" qəzetinə mövzu ilə bağlı açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, Azərbaycanda yoxsulluğa qarşı mübarizə ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindəndir: "Onu da nəzərə alaq ki, son beş ildə reallaşan beş sosial paketin də əsas mahiyyəti vətəndaşlarımızın sosial təminatının daha da yaxşılaşdırılması ilə bağlı olub. Təkcə 2025-ci ildə reallaşan sosial paketə dövlət büdcəsindən əlavə olaraq 1,5 milyard manat vəsait ayrılıb".

Deputatın sözlərinə görə, yoxsulluğa qarşı mübarizə yalnız büdcədən sosial ayırmalarla deyil, eyni zamanda bu istiqamətdə özəl sektorun rolunun genişləndirilməsi ilə müşahidə olunur: "Bu da öz növbəsində xüsusilə yoxsulluğun azaldılmasında özəl sektorun payının artmasına gətirib çıxarır. Bu baxımdan ölkəmizdə yoxsulluğun minimumlaşdırılması ilə bağlı tədbirlərin görülməsini müşahidə edirik".

V.Bayramov məlumat verib ki, rəsmi statistikaya əsasən, hazırda ölkəmizdə yoxsulluq səviyyəsi 5 faiz ətrafında dəyişir: "Burada həm kəmiyyət, həm keyfiyyət, həm də yoxsulluğun ayrıca qiymətləndirilməsi həyata keçirilir. Ümumiyyətlə, məqsəd növbəti dövrdə daha çox iş yerlərinin yaradılması və dövlət tərəfindən bütövlükdə sosial alətlərdən daha yaxından istifadə olunmasıdır. Bunlar da təbii ki, nəticə etibarilə yoxsulluğun səviyyəsinin növbəti illərdə də azaldılmasına xidmət edir".

O əlavə edib ki, bu baxımdan Azərbaycan BMT-nin Yoxsulluğun Azaldılması ilə Minilliyin İnkişaf Məqsədlərində qeyd olunduğu kimi, həm iş yerlərinin yaradılması, həm də dövlət maliyyələşməsinin bu istiqamətdə genişləndirilməsi kimi tədbirlərdən istifadə etməklə yoxsulluğun minimumlaşdırılmasına çalışan ölkələrdəndir.

### Ardıcıl və məqsədyönlü addımlar

Ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən uğurlu sosial, iqtisadi islahatlar, bu sahə ilə bağlı qəbul olunan proqramlar respublikamızda yoxsulluğun səviyyəsinin azaldılmasında mühüm rol oynayır. Dövlətimiz tərəfindən həssas əhali qruplarına aid vətəndaşların sosial rifah halının yaxşılaşdırılması üçün daim mühüm addımlar atılır.

Vurğulayaq ki, Azərbaycanın Qarabağda qazandığı Zəfər həm də birbaşa ölkədə yoxsulluğun azaldılması istiqamətində görülən işlərə müsbət yöndə təsir göstərir. Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilməyə başlanılıb. Burada şəhər, qəsəbə və kəndlərimiz yenidən tikilir, müasir infrastruktur qurulur. Görülən sürətli və kompleks işlərin nəticəsidir ki, 2022-ci ilin yayından etibarən Zəngilanın Ağalı kəndinin timsalında artıq Böyük qayıdışa start verilib. Hazırda Qarabağ və Şərqi Zəngəzurda on minlərlə insan yaşayır, işləyir, təhsil alır. İşğaldan azad edilən yurdlarımızda həyatın yenidən qaynaması həmçinin bu ərazilərdə yeni iş yerlərinin açılması anlamına gəlir. Bu göstərici həm də ölkəmizdə yoxsulluq səviyyəsinin minimum həddə endirilməsində vacib rol oynayır.

Göründüyü kimi, dünyanın qarşısında duran yoxsulluq probleminin həlli respublikamızda da daim diqqət mərkəzindədir. Hazırda ölkəmizdə yoxsulluq həddinin 5 faiz ətrafında olması da bu istiqamətdə görülən mühüm tədbirlərin uğurlu nəticəsidir. Bir sözlə, ölkəmizdə müşahidə olunan və dövlətimizin, xalqımızın maraqlarını təmin edən davamlı inkişaf yoxsulluq səviyyəsini də minimuma endirib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# "Övladlarımı atama əmanət edirəm"

**Bu, Boyka ləqəbli döyüşçü, şəhid Elvin Abbasovun yoldaşlarına son vəsiyyəti olub. Döyüşlərdən sağ qayıdan əsgərlər oğlunun xahişini Şamil ataya çatdırıblar. İndi onun Tanrıdan bircə diləyi var: Allah ömür versin, Elvinin övladlarını özü boya-başa çatdırsın.**

Şamil kişi deyir:

- Oğlumla bağlı hər şey, onunla keçirdiyim hər an gözümün qarşısındadır. Xatırladıqca qəlbim göynəyir. Ancaq vaxt keçdikcə, oğlumun komandirləri, əsgər yoldaşları ilə görüşdükcə, onun qəhrəmanlığı haqqında yeni məlumatları eşitdikcə kədərlə bərabər qəlbimdə başqa hisslər də yaranır - sonsuz qürur, təşəkkür hissləri.

Elvin Abbasov şəhadətə yüksəldiyi günədək böyük bir yol keçmişdi. Müddətli həqiqi hərbi xidmətdə olarkən komandiri Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimov idi. Komandirin şəxsi nümunəsi Elvinin qəlbindəki vətənpərvərlik hisslərini daha da gücləndirmişdi.

Abbasovlar ailəsi Umudludan məcburi köçkün düşmüşdü. Elvin nə bu kəndi, nə də oradakı doğma evlərini görmüşdü. Amma uşaqlıqdan bu istəklə yaşamışdı. Rəhmətlik babasına da söz vermişdi ki, birlikdə o kəndə qayıdacaqlar.

Beləliklə, 2013-cü ilin sentyabr ayında Daxili Qoşunların "Yarasa" qrupunda müddətdən artıq hərbi xidmətə başlayır. Uşaqlıq illərindən idmanla məşğul olması, yüksək fiziki hazırlığı ona bütün çətinliklərin öhdəsindən bacarıqla gəlməyə kömək edir. Təlimlərdə fərqlənir, komandirlərin və yoldaşlarının hörmətini qazanır.

44 günlük Vətən müharibəsi başlayanda Abbasovlar ailəsinin hər iki oğlu cəbhədə idi. Şamil kişi deyir ki, Elvin xüsusi təyinatlı dəstənin tərkibində əvvəlcə Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsində dayanıb, düşmənin diversiya-kəşfiyyat qruplarının darmadağın edilməsində iştirak edib. Ailənin ikinci oğlu Elçin də müharibədəydi. O, idarə etdiyi "KamAZ" markalı maşınla cəbhəyə silah-sursat və əhali tərəfindən könüllü olaraq əsgərlərimizə göndərilən sovqatları daşıyırdı. Oktyabrın əvvəllərində "Tülkü dərəsi"ndə onun sursatla dolu maşını düşmən tərəfindən vurulur və yalnız təsadüf nəticəsində, əsgərlərin yanında bir neçə dəqiqə ləngidiyindən Elçin sağ qalır.



Bütün Azərbaycan xalqı kimi, bu ailədə də hər kəs cəbhədən gələn xəbərlərlə yaşayırdı. Sevinc kədərə, kədər həyəcana qarışmışdı. Ancaq bütün hisslərin içində ən güclüsü inam idi - qalib gələcəyimizə olan inam.

Elvin sonuncu dəfə ailəsi ilə oktyabrın 30-da danışmışdı. Həmin gün onun daxil olduğu xüsusi təyinatlı qrup mühüm tapşırıq almışdı - Laçın-Şuşa yolu üzərindəki yüksəklikdə yerləşən mövqelər düşməndən azad edilməli idi. Bununla Şuşaya gedən yol nəzarətə götürüləcəkdi. Elvin bu barədə doğmalarına heç nə deyə bilməmişdi. Yalnız müharibə başa çatandan sonra onlar öyrəndilər ki, Elvin və yoldaşları noyabrın 4-də böyük qəhrəmanlıq göstərərək düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv ediblər. Deyirlər ki, qayaya dırmaşarkən Elvin özü ilə bərabər bütün silah-sursatını götürüb. Onların ağır olduğunu söyləyən yoldaşlarına isə deyib: "Qoy silahım da, sursatım da özümlə olsun ki, o namərdlərlə qarşılaşanda layiq olduqları cavabı alsınlar".

Elvingilin qrupu tapşırığı tam yerinə yetirir. Lakin bir müddət sonra düşmən snayperinin gülləsinə tuş gələn baş çavuş Elvin Abbasov gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır.

O vaxtdan 5 il ötüb. Bu günlər Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ilk dəfə məktəbə qədəm qoyan 5 yaşlı şəhid övladları ilə görüşüb. Uşaqları təbrik edib, xeyir-dua verib, məktəb ləvazimatları bağışlayıb. Onların arasında Elvin Abbasovun qızı Sevil də vardı. Bacısı Aylin isə ikinci sinifdə oxuyur.

Beş il ərzində ailədə çox şey dəyişib. Elvinin həyat yoldaşı Nərgiz universitetə qəbul olub və bu il təhsilini başa vuracaq. Şəhidin qardaşı Elçin hazırda polis sıralarında xidmət edir.

Bu yaxınlarda ailə üzvləri Azərbaycan Ordusunun azad etdiyi torpaqlara ayaq basıb, son döyüşün şahidi olan yüksəkliyə qalxıblar.

Şəhidin həyat yoldaşı Nərgiz xanım deyir:

- O yüksəkliyə qalxarkən hansı hissləri keçirdiyimi söyləmək çox çətindir. Sanki burada yerlə-göy birləşmişdi və şəhidlərimizin ruhu da bizimləydi. Elvinə deyəcəyim sözüm çox idi. Ən əsası isə söylədim ki, biz onun varlığını daim hiss edirik. Qızlarını özü arzuladığı kimi böyüdürük. Şəhid ailələrinə dəstək olan dövlətimizə, bütün xeyirxah insanlara təşəkkürümüzü bildirirəm.

***Svetlana BAĞIROVA,***
***"Yeni Tərtər" qəzetinin redaktoru***

# Füzulidə şəhidlərin xatirəsi anılıb





Füzulidən olan üç şəhidin anım günündə məzarları ziyarət olunub. Müqəddəs amal uğrunda şəhadətə ucalan şəhidlərin şərəfli həyatından bir daha söhbət açılıb. Torpaqlarımızın azad edilməsi üçün silaha sarılaraq canlarını fəda edən şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğu bir daha diqqətə çatdırılıb.

AZƏRTAC xəbər verir ki, anım mərasimində şəhidlərin ailə üzvləri ilə bərabər rayon icra hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd sakinləri və ziyalılar iştirak ediblər.

❖ ❖ ❖



Rövlan Qurban oğlu Məmmədov əslən Füzuli rayonu Qaraxanbəyli kəndindən olan və Bakıda məskunlaşan məcburi köçkün ailəsində 2001-ci il mayın 24-də anadan olub. Xətai rayon 194 nömrəli tam orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb. Uğurlu xidmətinə əsasən Xüsusi Təyinatlı Qüvvələrə seçilib. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Rövlan Məmmədov Füzuli, Cəbrayıl, Kəlbəcər döyüşlərində iştirak edib. Rövlan 15 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib və Zabrat qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Rövlan Məmmədov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif olunub.

❖ ❖ ❖

İlqar Adışirin oğlu Baxışov 2000-ci il noyabrın 21-də Horadiz şəhərində anadan olub. İlqar azyaşlı vaxtlarından Vətənə olan sevgisi ilə seçilib. 2019-cu ildə həqiqi hərbi xidmətə də ruh yüksəkliyi ilə yollanan İlqar Tərtər rayonunda ön cəbhədə xidmətdə olub. Vətən müharibəsi başlanan tarixdən döyüş əməliyyatlarında böyük şücaətlə iştirak edib. Suqovuşanın mənfur işğalçılardan azad olunması zamanı 15 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Horadiz şəhər qəbiristanlığında dəfn edilib. Prezident İlham Əliyevin sərəncamına əsasən, İlqar Baxışov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

❖ ❖ ❖

Elgün İlham oğlu Paşayev Füzuli rayonundan olan, Sabirabad rayon Qalaqayın kəndində məskunlaşan məcburi köçkün ailəsində 1994-cü il martın 4-də anadan olub. Sonralar ailəsi ilə bərabər Füzuli rayon İkinci Zobucuq qəsəbəsində məskunlaşıblar. Həqiqi hərbi xidməti zamanı Elgün sərhədçi əsgər kimi xidmətdə olub. Xidmətini başa vurduqdan bir neçə il sonra Elgün müddətdən artıq hərbi xidmətçi kimi Vətənin keşiyində dayanıb. Azərbaycan Ordusunun kiçik çavuşu olan Elgün Paşayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şücaətlə döyüşüb. Düşmən sədlərinin yarılmasında qəhrəmanlığı ilə seçilib və Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Elgün Paşayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## ZƏFƏR gündəliyi
## 17 oktyabr 2020-ci il

# *İlham ƏLİYEV:* "Füzuli şəhəri işğalçılardan azad edilib"

**Oktyabrın 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb.**

Qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub.

Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutub.

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Gəncə və Mingəçevir şəhərlərini, Tərtər, Ağdam, Bərdə və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub.

### İlham ƏLİYEV: "Dövlətimizin ən parlaq səhifəsini yazırıq"



Prezident İlham Əliyev xalqa müraciət edərək müjdəli xəbər verib:

"Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Prezident həmçinin vurğulayıb ki, 17 oktyabr təkcə füzulililərin xatirəsində deyil, Azərbaycan dövlətinin tarixində əbədi qalacaq: "Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib".

Ali Baş Komandan Ermənistanın baş nazirinə də yeni ismarışlarını göndərib: "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən "Qarabağ Ermənistandır". Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, "Qarabağ Ermənistandır". Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən".

### Düşmənin 7 tank, 11 artilleriya qurğusu, 17 ədəd avtomobil texnikası məhv edilib

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan olub.

### Mehriban ƏLİYEVA: "Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir"

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi "İnstaqram" səhifəsində paylaşım edib:

"Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən.

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Mehriban ƏLİYEVA: "Təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq"

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "İnstaqram" səhifəsində daha bir paylaşım edib. Paylaşımda deyilib:



"Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil.

Gəncə - qədim dövlətçiliyimizin beşiyidir.

Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir!

Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir.

Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!"

### Erməni hərbçilər, hətta polislər də döyüş mövqelərini tərk edərək qaçıblar

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan olub. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıblar. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilib.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhəboyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayıb.

### Düşmənin S-300 zenit-raket kompleksinin məhv edilməsi görüntüsü yayılıb

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Azərbaycan Müdafiə Nazirliyi düşmənin S-300 zenit-raket kompleksinin, yanacaq-sürtkü materialları və döyüş sursatı anbarlarının, zirehli texnikalarının aviasiya zərbələri ilə darmadağın edilməsinin görüntülərini yayıb.

### Ermənistana məxsus 1 ədəd Su-25 təyyarəsi məhv edilib

Cəbrayıl istiqamətində bölmələrimizin mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd Su-25 təyyarəsi hava hücumundan müdafiə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində uçuşlar keçirməyə cəhd göstərib.

Düşmənin növbəti PUA-sı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Çin həkimləri tarixi əməliyyat keçiriblər

Oktyabrın 16-da "Texnologiya sərhəd tanımır: sağlamlıq naminə birləşirik" devizi altında keçirilən "Robotik Cərrahiyyə Körpüsü-2025" beynəlxalq tədbiri çərçivəsində Azərbaycan səhiyyəsi tarixində misilsiz innovativ bir hadisə yaşanıb. Belə ki, ilk dəfə olaraq Azərbaycan və Çin cərrahları bir xəstə üzərində məsafədən və eyni anda robotik cərrahiyyə əməliyyatı həyata keçiriblər.

AZƏRTAC xəbər verir ki, əməliyyat Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində yerləşən real xəstə üzərində aparılıb. Əməliyyat Bakıda icra edilib, lakin eyni vaxtda həm Azərbaycan, həm də Çin cərrahi komandaları əməliyyata qoşularaq beynəlxalq bir texnoloji körpü vasitəsilə birgə müdaxilə ediblər.

Əməliyyatdan əvvəl keçirilən tədbirdə çıxış edən Milli Onkologiya Mərkəzinin Onkoginekologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Şəmistan Alıyev bildirib ki, son illərdə aparılan siyasət nəticəsində istər siyasi, istər iqtisadi, istər mədəni, istərsə də digər sahələrdə birgə işlər zamanı başqa dövlətlərlə arada olan sərhədlər maneə yaratmır, əksinə, körpü rolunu oynayır. O, fikirlərinə belə davam edib: "Bu gün Milli Onkologiya Mərkəzində bir araya gəlməyimiz tibb tariximiz üçün çox əlamətdar hadisədir. Mərkəzin baş direktoru akademik Cəmil Əliyevin rəhbərliyi altında bu gün dünyanın qabaqcıl tibb mərkəzləri ilə beynəlxalq səviyyədə əməkdaşlıqlar qurulur. Bundan əlavə, ötən həftə daha bir mühüm addım ataraq canlı robotik əməliyyat həyata keçirdik. Həmin əməliyyatı Qarabağ iqtisadi zonasına canlı şəkildə yayımladıq. Bu, müasir texnologiyaların ölkəmizin bütün bölgələrinə inteqrasiyası baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu gün isə daha bir tarixi hadisəyə şahid oluruq. Ümid edirəm ki, bu hadisə yeni ideyaların, elmi əməkdaşlıqların və gələcək uğurların bir başlanğıcı olacaq".

Milli Onkologiya Mərkəzinin Başboyun şişləri şöbəsinin aparıcı cərrah-onkoloqu, Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı Filialının (Seçenov Universiteti) rektoru professor Əziz Əliyev Milli Onkologiya Mərkəzinin fəaliyyətindən bəhs edən təqdimatla çıxış edib: "Milli Onkologiya Mərkəzində ən son tibbi innovasiyalar tətbiq olunur, ən son yeniliklər ilk olaraq burada həyata keçirilir. Burada xəstələrə yüksək səviyyədə xidmət göstərmək üçün hər bir şərait var və müalicələr konsilium şəkildə aparılır. Biz Amerika Birləşmiş Ştatları, Avropa və Türkiyənin bir çox






klinikası ilə müqavilələr imzalamışıq. Onlarla əməkdaşlıq edir, elmi sahədə təcrübə mübadiləsi həyata keçiririk".

2020-2024-cü illərdə Milli Onkologiya Mərkəzində göstərilən tibbi xidmətlərlə bağlı məlumat verən Ə.Əliyev bildirib ki, həmin səhiyyə ocağında müalicə alan ümumi xəstə sayı 200 mindən çox, müraciət sayı 827 minə yaxın olub. 39 mindən çox əməliyyat icra edilib. Şüa-terapiya alan xəstələrin sayı 14 mindən çox, kimyaterapiya alan xəstələrin sayı 27 minə, göstərilən kimyaterapiya xidmətləri 161 minə yaxın olub.

Azərbaycanda kişilər arasında ən çox ağciyər, qadınlar arasında isə süd vəzi xərçənginə rast gəlindiyini deyən professor qeyd edib: "Biz xəstələrin müalicəsi üçün hər zaman yeni innovasiyalar tətbiq edirik. Çalışırıq ki, xəstəliyi erkən diaqnostika ilə aşkarlayaq və uğurlu əməliyyat aparaq ki, şüa və kimyaterapiyalara ehtiyac olmasın. Bunun üçün mərkəzdə bütün şərait var".

O, indiyədək mərkəzin cərrahları tərəfindən 15-dən çox robotik əməliyyat icra edildiyini, bu gün isə səhiyyə tariximizdə ilk dəfə olaraq Çin cərrahları ilə uzaq məsafədən və eyni anda əməliyyat həyata keçirildiyini diqqətə çatdırıb: "Bu hadisə Azərbaycan üçün robotik və uzaqdan idarəolunan cərrahiyyə texnologiyalarının tətbiqində yeni bir mərhələnin başlanğıcı olacaq".

Çinin "Harbin Sagebot Intelligent Medical Equipment" şirkətinin vitse-prezidenti və direktorlar şurasının üzvü Pinqçuan Vu təmsil etdiyi şirkətin əsasən robotlar və müasir texnologiya sistemləri üzərində fəaliyyət göstərdiyini və fəaliyyətə başlayandan bir neçə il sonra qlobal laporoskopiya üzrə yüksək nailiyyətlər əldə etməyə başladığını diqqətə çatdırıb: "Bizim fəaliyyətimiz urologiya, ginekologiya və ümumi cərrahiyə əməliyyatları üzrə göstərilən tibbi xidmətlərə dəstək olur. Əməkdaşlıq nəticəsində Azərbaycanın Milli Onkologiya Mərkəzi də öz sistemlərini təkmilləşdirəcək və Azərbaycan xalqı bunun bəhrəsini görəcək. Biz bu fəaliyyət sayəsində nəinki Azərbaycanda, eyni zamanda bütün regionda çağırışları ünvanlamaq fürsəti əldə edəcəyik. Milli Onkologiya Mərkəzi ilə fəaliyyətimizi, əməkdaşlığımızı davam etdirəcəyimizə ümid edirik".

Çunçin Tibb Universitetinin Birinci Klinik Xəstəxanasının Doğum və ginekologiya şöbəsinin müdiri, Da Vinçi cərrahiyyə robotu üzrə Çin Ginekoloji Klinik Cərrahiyyə Tədris və Nümayiş Mərkəzinin rəhbəri tibb elmləri doktoru Tan Czünyin müasir robotik cərrahiyyə sistemlərinin texniki imkanları və Çində tətbiqindən bəhs edən təqdimatla çıxış edib.

Daha sonra cərrahi əməliyyat başlayıb. Azərbaycan tərəfindən əməliyyata Milli Onkologiya Mərkəzinin Onkoginekologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Şəmistan Alıyev, Çin tərəfindən isə Harbin Tibb Universitetinin Onkologiya Xəstəxanasının professoru Liuyan Go rəhbərlik edib. Əməliyyat xüsusi robotik cərrahiyyə sistemi və yüksəksürətli kommunikasiya infrastrukturu vasitəsilə həyata keçirilib. Həmin sistem iki ölkədən olan mütəxəssislərə real vaxt rejimində əlaqə saxlayaraq, bir xəstə üzərində sinxronlaşdırılmış şəkildə robotik əməliyyat aparmağa imkan verib.

Milli Onkologiya Mərkəzinin baş həkimi, Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli jurnalistlərə açıqlamasında 7 min kilometr məsafədən birgə icra olunan əməliyyatın təkcə ölkə səhiyyəsi üçün deyil, bütövlükdə region üçün ilk və tarixi bir hadisə olduğunu diqqətə çatdırıb. Baş həkimin sözlərinə görə, təkcə Milli Onkologiya Mərkəzində deyil, respublikada laporoskopik əməliyyatların aparılması çox geniş vüsət alıb. Belə bir əməliyyat isə ölkədə ilk dəfədir ki, həyata keçirilir: "Bu nailiyyəti əldə etmək çox böyük bir zəhmət, məsuliyyət tələb edir. Buna baxmayaraq, bizim cərrahlarımız bu məsuliyyəti üzərlərinə götürdülər və çox böyük uğurla həyata keçirdilər. Bu, məsafəli idarəolunan bir cərrahi əməliyyatdır. Burada texniki cəhətdən çatışmazlıqlar ola, rabitə əlaqəsində problem yarana bilərdi. Lakin heç bir çatışmazlıq olmadı və 65 yaşlı qadın üzərində uşaqlıq xəstəliyi ilə əlaqədar aparılan əməliyyat uğurla başa çatdı".

Qeyd edək ki, tədbirin təşkilatçıları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi, "Harbin Sagebot Intelligent Medical Equipment Co. Ltd." (Çin Xalq Respublikası) və Qazaxıstanın "Medical Technologies Ltd." MMC şirkətidir.

Bu misilsiz innovativ hadisə Azərbaycanın tibb sahəsində innovasiyaların tətbiqi və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm tarixi mərhələ olacaq.

# Ermənistanda kilsə ilə hökumət arasında savaş qızışır

## Xalqın əsas hissəsi isə bu savaşa loyal yanaşır

Ermənistan hökuməti ilə Apostol Kilsəsi arasında gərginlik hələ Nikol Paşinyan hakimiyyətə gəlməzdən əvvəl başlayıb. Bu bir həqiqətdir ki, Ermənistanda kilsə illərdir dini mərkəzdən çox siyasi-ideoloji mərkəz kimi fəaliyyət göstərir. Xalqlar arasında düşmənçilik toxumunun səpilməsindən tutmuş soydaşlarımızın dədə-baba torpaqlarından qovulması və "böyük Ermənistan" ideyasının əsas müəllifi də erməni keşişləri, "din xadimləri"dir.

Böyük maddi imkanlara və xarici əlaqələrə, xüsusilə erməni lobbisinin topladığı maddi resurslara sahib erməni katolikosu həm də Ermənistanda hakimiyyət dəyişikliklərinin əsas müəlliflərindəndir. Nikol Paşinyanın hakimiyyətə gəlişinə kimi Ermənistanın Apostol Kilsəsi dini qurumdan çox hakimiyyətə nəzarət funksiyasını həyata keçirib. Odur ki, Qərbyönümlü Nikol Paşinyanın hakimiyyətə gəlişi seçkilərdə uduzan Ermənistan hakimiyyətindən çox erməni Apostol Kilsəsinə zərbə oldu. N.Paşinyanın hakimiyyətinin ilk illərində ona nisbətən loyal yanaşan kilsə Ermənistan müharibədə məğlub olduqdan sonra hökumətə qarşı açıq hücuma keçdi. İlk olaraq Böyük Kilikiya Evinin katolikosu I Aram Ermənistanın baş naziri Nikol Paşinyanı istefa verməyə çağıraraq "Erməni xalqı ümidsizdir, məğlubiyyətin gerçəkləşməsi xəyal qırıqlığına və qeyri-müəyyənliyə səbəb oldu" deyə erməni katolikosu Nikol Paşinyanı istefaya çağırdı: "Baş nazirin istefasından sonra yaradılacaq keçid milli razılaşma hökumətinin ən qısa müddətdə erkən seçkiləri təşkil etməyə başlayacağını gözləyirik".

Aydın məsələdir ki, kilsə və revanşistlər hesab edirdilər ki, Qarabağı tərk edən separatçıları və hakimiyyətdən narazı qüvvələri səfərbər etməklə qarışıqlıqdan yararlanıb müharibədə məğlub olmuş Paşinyan hökumətini devirib, təkrar hakimiyyəti ələ ala biləcəklər. Xatırladaq ki, həmin dövrdə küçələrə çıxan kütləni əsasən Arxiyepiskop Mikael Ajapahyan və Arxiyepiskop Baqrat Qalstanyan idarə edirdi.

Nikol Paşinyan xalqdan təkrar mandat aldıqdan sonra onun kilsəyə qarşı münasibətinin dəyişəcəyi, faktiki olaraq Ermənistanda ikihakimiyyətliliyə son qoyacağı şübhəsizdir. Bunu kilsə xadimləri də dərk edirlər. Elə bu səbəbdən də kilsə bütün imkanlarını səfərbər edib N.Paşinyanı hakimiyyətdən salmaq cəhdini daha da artırıb. Bu zaman həm də artıq meydanda bütün ermənilərin katolikosu II Qaregin özü görünməyə başlayıb. N.Paşinyanın "Qarabağ Azərbaycanın tərkibində olmalıdır" bəyanatını yersiz hesab edən II Qaregin iddia edir ki, hakimiyyət Qarabağın Azərbaycanın tərkibində olacağı ilə bağlı qərar verərsə, erməni xalqı buna dözməyəcək". Bu, xalqı Paşinyana qarşı mübarizədə səfərbər olmağa çağırış idi.

Sözsüz ki, N.Paşinyan da planlı hərəkət edir. Baş nazir beynəlxalq müstəvidə mövqelərini möhkəmlətdikcə Ermənistanda müharibədən bezən, sülh istəyən qüvvələrin onun hakimiyyəti ətrafında cəmləşdiyini, araqarışdıran keşişlərə, görülən tədbirlərə vətəndaşların seyirçi münasibətini görüb daha cəsarətli addımlar atmağa başlayıb.

Xatırladaq ki, illik həbslər 2025-ci ilin iyun ayında həyata keçirilmişdi. İyunun 25-də Arxiyepiskop Baqrat Qalstanyan "konstitusional quruluşu zorla dəyişdirməyə çağırış" ittihamı ilə saxlanılmışdır. Ermənistan İstintaq Komitəsi ona qarşı "hakimiyyəti ələ keçirmə planı"nda iştirak etməsi ittihamını irəli sürüb.

Kilsə rəhbərliyi isə bu ittihamları "siyasi sifariş" adlandıraraq ruhanilərə qarşı təzyiqin dini azadlıqlara zərbə olduğunu bəyan edir. İyul ayında növbəti xəbər yayıldı - Arxiyepiskop Mikael Ajapahyan məhkəmənin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum olunub. Məsələ bununla da bitmədi. N.Paşinyan bilirdi ki, ilanın başı əzilməsə, məsələ daha pis məcraya yönələ bilər. Hakimiyyət planlarını həyata keçirmək üçün ilk növbədə ona yük olan kilsədə təmizilik işi aparılmalıdır. Konkret olaraq katolikos Ktriç Nersisyan öz postunu tərk etməlidir. N.Paşinyan həm də bunu mənəvi tellərlə, Nersisyanın "subaylıq andı"nı pozması ilə izah edirdi.

"Vətəndaş Müqaviləsi" partiyasının qurultayında çıxışı zamanı baş nazir Nikol Paşinyan hazırkı katolikos Ktriç Nersisyanın istefasını zəruri hesab etdiyini xüsusi vurğuladı: "Biz mütləq şəkildə katolikosluğun Nersisyandan azad olunması gündəliyini həyata keçirməliyik. O getməlidir. Nə qədər tez getsə, bir o qədər yaxşıdır. Ən yaxşısı isə bunu dərk edib, öz qərarı ilə getməsidir". Ktriç Nersisyan isə baş nazirin bu açıqlamasını qulaqardına vuraraq indiyəcən öz işini görməkdə davam edir.

Növbəti seçkilər isə yaxınlaşmaqdadır. Hakimiyyətə qarşı əsas müxalif güc mərkəzi kilsənin olduğunu bilməyən yoxdur. Qarşıdakı seçkilərdə qələbəni təmin etmək üçün hakimiyyət indidən əsaslı tədbirlər görməsə, təbliğat vaxtı kilsə xadimləri təşəbbüsü ələ ala bilərlər. Elə bu məqsədlə də hakimiyyət daha qətiyyətli addımlar atmaqda qərarlı görünür. Ölkədə din xadimlərinin həbsinə başlanılıb və din xadimlərinin ardıcıl həbsi ölkədə kilsə ilə dövlət arasında gərginliyi daha da dərinləşdirib. Erməni Apostol Kilsəsinin informasiya xidmətinin başçısı keşiş Yesai Artenyanın açıqlamasına görə, oktyabrın 15-də Ermənistan İstintaq Komitəsinin və Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları Erməni Apostol Kilsəsinin Araqatsotn Yeparxiyasının başçısı yepiskop Mkrtıçın (dünyəvi adı Ayk Proşyan ) və Araqatsotn vilayətində kənd monastırının keşişi Paren Arakelyanın da saxlanılaraq istintaq şöbəsinə aparıldığını bildirib. Qeyd edib ki, Ermənistanda təhlükəsizlik qüvvələri artıq Araqatsotn yeparxiyasının 13 ruhanisini, o cümlədən onun rəhbəri yepiskop Mkrtıçı saxlayıb.

Rəsmi məlumatlarda onların "qanunsuz yığıncaqların təşkili" və "vətəndaşların konstitusion hüquqlarına müdaxilə"də ittiham olunduğu bildirilir. Hökumət nümayəndələrinin sözlərinə görə, həyata keçirilən tədbirlər "ictimai sabitliyi qorumaq" məqsədi daşıyır. Onların fikrincə, bəzi din xadimləri "kütləvi etirazlar zamanı dövlət orqanlarına qarşı zorakılığa çağırışlar ediblər".

Xatırladaq ki, həbs olunan yepiskop Proşyan bütün ermənilərin katolikosu II Qareginin yaxın qohumudur. Kilsə rəhbərliyi bu addımı "dini institutlara qarşı repressiya siyasəti" kimi qiymətləndirərək "hakimiyyət xalqın inancına qarşı çıxır" kimi bəyanatlar yayır. Hazırda pik həddinə çatan qarşıdurmada tərəflərin güzəştə gedəcəyi inandırıcı görünmür. Hələlik müşahidə olunan odur ki, Ermənistan əhalisi həbslərə loyal yanaşır. Bu isə o deməkdir ki, Paşiniyan ölkədə sabitliyi, daha doğrusu, hakimiyyətini qorumaq üçün bütün imkanlardan istifadə edə biləcək.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində iqtisadiyyata və ətraf mühitə vurulmuş ziyanla bağlı sənədlər məhkəmədə tədqiq edilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 16-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə söz alan təqsirləndirilən şəxs Davit İşxanyan daşınan və daşınmaz əmlaka, mədəni dəyərlərə dəymiş zərərlə bağlı sənədlərin oxunmasının qısaldılmasını və qondarma rejimin "ordusunun qərargah rəisi" Kamo Vardanyanın imzaladığı sənədin surətinin onlara da təqdim olunması ilə bağlı vəsatətlə çıxış edib.

İclasa sədrlik edən Zeynal Ağayev hazırda sənədlərin tədqiqinin aparıldığını, eyni zamanda həmin sənədin surətinin təqsirləndirilən şəxslərə verilən planşetlərdə olduğunu, həmçinin sənədlərin çap olunmuş variantlarının təqsirləndirilən şəxslərin vəkillərinə təqdim ediləcəyini deyib.

Sonra elan edilib ki, təqsirləndirilən şəxs Levon Mnatsakanyanın əvvəlki məhkəmə iclasındakı xahişinə əsasən, zərərçəkmiş şəxs İlham Məmmədov yenidən məhkəməyə çağırılıb.

İ.Məmmədov ona təqsirləndirilən şəxslər tərəfindən ünvanlanmış sualları cavablandırıb.

L.Mnatsakanyanla yanaşı, David Babayanın, David Manukyanın da suallarını cavablandıran İ.Məmmədov bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülərkən ona verilən işgəncələr barədə bu il oktyabrın 2-də keçirilmiş məhkəmə iclasında ətraflı danışıb.

Qeyd edib ki, 2002-ci il mayın 10-da hərbi xidmətdə olarkən posta gedən zaman yolu azıb və Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, işgəncəyə məruz qalıb. "Orada otaqda saxlanıldım, başqa zabitlər də var idi, sorğu-sual olunurdum", - deyə o əlavə edib.

Əlillik dərəcəsinin nə zaman və hansı əsaslarla əlaqədar verilməsi barədə sualı cavablandıran zərərçəkmiş şəxs bildirib ki, əsirlikdə olarkən işgəncələrə məruz qalıb və xəsarət alıb. Əlillik dərəcəsi də bu səbəbdən verilib.

Əsirlikdə olarkən ona xarici ölkəyə getməklə bağlı təklifin olunub-olunmaması və olunubsa kim tərəfindən edilməsi ilə bağlı suala cavabında İ.Məmmədov qeyd edib ki, bu barədə təklif olunsa da, o, buna razılıq verməyib. Təklifi edən şəxsi də tanımır.

Sonra L.Mnatsakanyan növbəti məhkəmə iclasında həmin vaxt orada baş verənlər barədə ətraflı danışacağını söyləyib.

Dövlət ittihamçısı Fuad Musayev diqqətə çatdırıb ki, L.Mnatsakanyan bir tərəfdən İ.Məmmədovu görmədiyini deyir, digər tərəfdən də bu barədə ətraflı danışacağını söyləyir. Əgər İ.Məmmədovu tanımırsa, o zaman haradan bilir ki, həmin vaxt orada nə baş verib?

L.Mnatsakanyan isə qeyd edib ki, o, İ.Məmmədovu tanımır, həmin vaxt orada baş verən hadisələrlə bağlı isə danışacaq.

Sonra məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

İclasda əvvəlcə iqtisadiyyata vurulmuş zərər və iqtisadi itkilərlə bağlı sənəd elan edilib.

Qeyd olunub ki, Ermənistanın hərbi təcavüzü nəticəsində müharibənin birbaşa təsirinə və işğala məruz qalmış Azərbaycan ərazilərində ölkənin təsərrüfat subyektlərinin iqtisadi fəaliyyəti tamamilə dayanıb, bölgənin iqtisadi resursları Ermənistan tərəfindən qanunsuz olaraq istismar edilib (o cümlədən təbii resurslar üzərində istismar hüquqlarının xarici şirkətlərə satılması yolu ilə), Azərbaycan iqtisadiyyatı - əhali, müəssisələr və dövlət böyük zərər və itkilərlə üzləşib.

Həmçinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərin işğal edilməsi nəticəsində 30 ilə yaxın müddətdə həmin torpaqlarda yerləşən mineral xammal ehtiyatları Ermənistan tərəfindən qanunsuz istismar edilib, böyük məbləğdə qeyri-qanuni gəlir əldə olunub, Azərbaycana böyük iqtisadi zərər vurulub.

İşğal dövründə filiz və qeyri-filiz yataqlarında qanunsuz istismar işləri aparılıb, həmçinin bütün növ yeraltı su ehtiyatlarından qanunsuz istifadə edilib.

Sənədlərdə göstərilib ki, Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycana məxsus su-elektrik stansiyaları işğalçı qüvvələr tərəfindən qeyri-qanuni şəkildə, heç bir ekoloji qaydaya əməl olunmadan istismar edilməklə elektrik enerjisi istehsal olunub. Bununla yanaşı, tikilməkdə olan elektrik stansiyalarının tamamlanması mümkün olmayıb. Nəticədə Azərbaycan hidroenerji istehsalı sahəsində böyük iqtisadi itkilərə məruz qalıb.

Bundan başqa, Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində əhalinin kənd təsərrüfatı ilə məşğul olması mümkün olmayıb, bu səbəbdən həm əhali, həm də dövlət böyük məbləğdə iqtisadi itkilərlə üzləşib.

"Minalar və partlamamış sursatlarla çirkləndirmənin vurduğu zərər" başlıqlı sənəddə qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərinin işğalı zamanı işğal olunmuş torpaqlarda yüz minlərlə mina basdırılıb, geniş ərazilər partlamamış hərbi sursatlar ilə çirkləndirilib. Bu səbəbdən işğaldan azad edilmiş ərazilərin Azərbaycanın digər ərazilərinə tam reinteqrasiyasını təmin etmək üçün uzun zaman və irihəcmli maliyyə vəsaiti tələb olunur.

Ətraf mühitə vurulmuş zərərlə bağlı sənəddə bildirilib ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində meşələr, qoruqlar, qədim ağaclar məhv edilib, Azərbaycanın fauna və florasına, su hövzələrinə böyük zərər vurulub.

Sonra cinayətkar dəstələr barədə sənədlər tədqiq edilib. Materiallarda göstərilir ki, cinayətkar dəstə olan "Yerkrapa" ("Könüllülər") 1990-cı illərdə yaradılıb və Ermənistanın ilk qanunsuz silahlı dəstələrindən biridir. Həmin dəstə 1993-cü ildə Ermənistanın müdafiə naziri Vazgen Sarkisyan tərəfindən yaradılıb. Bu dəstə Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması zamanı döyüşlərdə fəal iştirak edib.

Bundan başqa, məhkəmə prosesində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın suveren ərazilərinin işğalında iştirak etmiş "Xaçlılar", "Malatiya könüllü", "Muş", "Arabo", "Sasna Tsrer", "Sasuntsi Davit", "Müstəqillik ordusunun könüllü milis hərbi-siyasi birliyi" və digər cinayətkar dəstələr barədə məlumatlar açıqlanıb.

Məhkəmə iclasında bir sıra internet resurslarında, o cümlədən sosial şəbəkələrdə yer alan informasiyalar əsasında sənədlər də tədqiq olunub. Eyni zamanda tədqiq olunan sənədlərə aid fotolar nümayiş etdirilib.

Məhkəmə prosesi oktyabrın 17-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Koçaryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QƏHRƏMANLAR UNUDULMUR

## Vətən sevgisi Nicatı ölümsüzlüyə qovuşdurdu

**Qeyrətli oğullar ölümdən qorxmadan özlərini odun-alovun içinə atıb 44 günə 30 il yağıya əsir olmuş Qarabağımızı azad etdilər. Bununla da qanları bahasına yeni tariximizin qəhrəmanlıq salnaməsi yazan Vətən sevdalılardan biri də 10 noyabr 2000-ci il Biləsuvarın Zəhmətabad kəndində anadan olan Nicat Höccət oğlu Qasımzadədir.**



Qısa ömür yolu keçsə də, onu doğma Azərbaycanına fəda etməklə ölümsüzlük qazanıb. 30 il düşmən tapdağına dönən Qarabağımızın xilaskarı, Vətənin ər oğlu olaraq adı xalq tərəfindən böyük qürurla çəkilir. Polad sinəsini Vətənə sipər edib tarix yazan qəhrəmanımız orta təhsilini başa vurub 2019-cu ildə Vətənin keşiyinə yollanıb. İlk 3 ay Goranboy rayonunda doğma Azərbaycanın hər qarışına olan sevgisini nümunəvi xidməti ilə göstərib. Sonra Ağdamda 3 ay artilleriya qoşunlarında üzərinə düşən bütün tapşırıqları layiqincə yerinə yetirib. Cəsurluğu, mərdliyi, igidliyi hesabına tanınan, sevilən Nicat hərbi xidməti dövründə pulemyotçu, daha sonra manqa komandiri olub. Xidmətinin axırıncı 2 ayını isə kiçik çavuş rütbəsi ilə başa vurub və 6 iyul 2020-ci ildə ordudan tərxis edilib. Amma yağı tapdağında olan Qarabağımıza görə Nicat evdə heç cür rahatlıq tapa bilməyib. Vətən sevdalı qəlbi məhz buna görə də erməni dığalardan qisas almaq istəyi ilə alışıb-yanıb. Azərbaycanın, eləcə dünya hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük haqq savaşımızda Vətənin müdafiəsinə qalxıb. Füzuli və Cəbrayıl rayonları istiqamətində gedən ağır döyüşlərdə odlardan, alovlardan keçərək düşmənin xeyli canlı qüvvəsini məhv edib, bir neçə yaralı dostunu döyüş meydanından çıxarıb. Aldığı yaraları belə unudaraq bir-birindən çətin vuruşlarda hünər göstərib. Erməni dığalarına qan uddurub, istədiyi qisası alandan sonra Şuşada aldığı qəlpə yarası nəticəsində noyabrın 9-da Vətən eşqli ürəyi əbədi dayanıb. 12 noyabr 2020-ci ildə doğulduğu Zəhmətabad kənd məzarlığında torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı Vətənə can borcunu şərəflə ödədiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Nicat Qasımzadə ölümündən sonra "Vətən uğrunda", Xocavəndin, Füzulinin, Şuşanın azadlığına görə, "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb.

Bəli, Qarabağımızın xilaskarı olaraq tarixin yaddaşına iz qoyub şanlı zəfərimizin qəhrəmanlıq simvoluna çevrilən Nicat kimi oğullar heç vaxt unudulmayacaq.

*Zəfər ORUCOĞLU*

● EHTİRAM

## Mənə göstərilən diqqət oğlumun da ruhunu şad edir

**Qazandığımız bütün qələbələr şəhidlərimizin qanı, canı bahasınadır. Odur ki, şanlı Zəfərimizi bizlərə bəxş edən şəhidlərimizə, şəhid ailələrinə, yaralı döyüşçülərə, müharibə iştirakçılarına qayğı göstərmək vətəndaş olaraq hər birimizin borcu olmalıdır.**



Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Qələbəmizin qazanılmasında payı olan igidlərimizdən biri də mənim oğlum Nicat Nəsibovdur. 24 yaşında şəhidlik zirvəsinə yüksələn oğlum döyüş meydanında göstərdiyi igidliyə görə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Bizim Qazaxda da şəhidlərimizin ailələrinə böyük hörmət və qayğı ilə yanaşırlar. Bu yaxınlarda qəflətən xəstələndim. Məni mərkəzi rayon xəstəxanasına yerləşdirdilər. Bunu eşidən rayon rəhbərliyi və hüquq-mühafizə orqanlarının nümayəndələri xəstəxanaya gələrək, müalicəmlə maraqlandılar. "Qazax Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin direktoru Afiq Fərruxov mənim səhhətimlə bağlı ətraflı məlumat verdi. Hazırda vəziyyətimin qənaətbəxş olduğunu, həkimlərin əllərindən gələni əsirgəmədiklərini, hər cür kömək göstərdiklərini bildirdi.

Hörmətli redaksiya! Mən bu diqqəti oğlumun ruhuna ehtiram kimi qəbul edirəm.

***Səməd NƏSİBOV,***
***Qazax rayon sakini, şəhid atası***

● MİNNƏTDARLIQ

## Yeni məktəb binası çoxdankı arzumuz idi

**Dağlar diyarı Lerikdə məktəblərin maddi-texniki bazasının möhkəmlənməsi istiqamətində mühüm işlər görülür. Son illər rayonda xeyli yeni məktəb binası tikilib və təmir olunub.**

Bunlardan biri də Elm və Təhsil Nazirliyi tərəfindən yeni inşa edilən Cəngəmiran kənd tam orta məktəbidir. 132 şagirdlik bu təhsil ocağı yeni dərs ilində şagird və müəllimlərin istifadəsinə verilib.



Əvvəllər məktəb binası köhnə, darısqal, yararsız vəziyyətdə olduğuna görə burada dərslərin normal səviyyədə təşkili çətin idi. Müasir tipli yeni məktəb binası isə hər cür inventar və avadanlıqlarla təmin olunub, şagirdlərin yüksək bilik almaları üçün bütün imkanlar yaradılıb. Uzaqdan belə öz yaraşıqlı görkəmi ilə diqqəti cəlb edən binanın daxilində geniş, işıqlı sinif otaqları, fənn kabinetləri, kitabxana, laboratoriyalar, akt və idman zalı vardır.

Pedaqoji kollektivin, şagird və valideynlərin uzun illərdən bəri arzusunda olduqları məktəb binasının yeni dərs ilinin ilk günündə istifadəyə verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olmuşdur.

***Z.ƏLİYEV,***
***Lerik rayon sakini***

● FOTOFAKT

## Ticarət fəaliyyəti sanitar mədəniyyəti ilə uzlaşmalıdır





**Bakının ən işlək ticarət məkanlarından biri olan 8-ci kilometr bazarı uzun illərdir paytaxt sakinlərinin gündəlik alış-veriş ünvanıdır. Bazarın ətrafında da meyvə-tərəvəz, geyim, balıq, ət və digər ərzaq məhsulları, hətta müəyyən tikinti avadanlıqları münasib qiymətlərlə satıldığı üçün bura həmişə alıcılarla dolu olur.**





Lakin bazarın iqtisadi canlanması fonunda ətraf mühitin və sanitar vəziyyətin getdikcə daha da pisləşməsi həm sakinləri, həm də oradan keçənləri ciddi narahat edir. Bir müddət əvvəl bu ərazidə qanunsuz küçə ticarətinin, antisanitar vəziyyətin aradan qaldırılması, şəhərin görünüşünə xələl gətirən köşklərin götürülməsi işlərinə başlanılsa da, məsələ tam həll olunmamış qalır.

Bazarın içərisində səliqə-sahman hiss olunsa da, ətrafındakı mənzərə xoşagələn deyil. Piyada yolları zəbt olunub, maşınlar yol kənarında nizamsız park edilib. Bu vəziyyət həm hərəkətə, həm də təhlükəsizliyə böyük maneə yaradır. Satıcıların bir qismi mallarını sanki küçənin ortasında sərgiləyir - toz basmış uşaq geyimləri, quru meyvələr, müxtəlif ərzaq məhsulları, təmizlik ləvazimatları, antisanitar vəziyyətdə fəaliyyət göstərən iaşə obyektləri - nəticədə yolboyu səliqəsiz ticarət sıraları əmələ gəlir. Heç bir sanitariya tələblərinə cavab verməyən səyyar köşkdə nar şirəsi satışından tutmuş gül-çiçək satış "obyekti"nədək hamısı piyada yolunu keçilməz vəziyyətə salıb. Bazarın yükdaşıyan arabaları yolun hərəkət hissəsində dayanaraq avtomobillərin gediş-gəlişinə ciddi maneçilik törədirlər.

Ən narahatedici mənzərələrdən biri isə küçədə balıq satışı "obyekt"lərində müşahidə olunur. Açıq havada, günün altında satılan balıqların yaratdığı qoxu və axan çirkli sular həm ətraf mühitə, həm də insanların sağlamlığına ciddi təhlükədir. Bu yerlərdə sanitar qaydalara əməl olunmadığı açıq-aşkar görünür. Balıq təmizlənən yerlərdən axan su kanalizasiya sisteminə deyil, birbaşa küçəyə buraxılır. Ətrafda toplanan tullantılar isə çox zaman günlərlə yığılmamış qalır.

Bazarın ətrafında zibil konteynerlərinin kifayət qədər olmaması tullantıların yerə atılmasına, qutuların dolub daşmasına və küləklə ətrafa sovrularaq küçələrə yayılmasına gətirib çıxarır. Bu həm qoxu, həm də infeksiya mənbəyinə çevrilir. Ətrafdakı binalarda yaşayan sakinlər bu vəziyyətdən şikayət edir, xüsusilə yay aylarında havanın dözülməz olduğunu bildirirlər.

Sosial məsuliyyət baxımından bu vəziyyət həm sahibkarların, həm də nəzarət orqanlarının diqqətindən yayınmamalıdır. Ticarət fəaliyyəti yalnız qazanc məqsədi ilə deyil, həm də ictimai rifahla uzlaşmalıdır. Əgər bir ticarətin fəaliyyəti şəhərin ekoloji və sanitar balansını pozursa, deməli, həmin yerdə ciddi qaydalar tətbiq edilməlidir.

Şəhərin abadlığını və təmizliyini bu cür antisanitar məkanların kölgəsində qoyub ticarət edənləri yaxınlıqdakı bazarın içində deyil, ətrafında alver etmələrinin səbəbi nədir?! Bazar piştaxtalarının qiymətlərimi? Yaxud digər səbəblər? Hər halda müvafiq təşkilatlar bu suala cavab tapmağa borcludurlar.

***Nərminə ƏSGƏROVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● UĞUR

## Ağ-qara taxtanın qızıl yazısı

**Azərbaycanın zəka oyunları sahəsində yetişdirdiyi istedadlardan biri də Sumqayıtın fəxri Nurtən Ələsgər qızı Nuriyevadır. O, gənc olmasına baxmayaraq, artıq dünya və Avropa arenalarında ölkəmizi uğurla təmsil edir, zəhmət və istedadın bəhrəsini görür.**



2008-ci il aprelin 24-də Sumqayıtda anadan olan Nurtən hazırda bu şəhərdəki 13 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdidir. Bu gənc istedad hələ 5 yaşında olarkən şahmatla maraqlanmağa başlayıb. İlk addımlarını müəllimləri Əsli və İlqar Əliyevlərin rəhbərliyi altında atıb. Hazırda onun məşqçisi Vüqar Bayramovdur.

Nurtən çox sayda yerli və beynəlxalq yarışda iştirakıyla həm fərdi, həm də komanda üzrə Azərbaycanı uğurla təmsil edib. 2023-cü ildə Albaniyada keçirilən Avropa çempionatında 3-cü yeri tutan Nurtən 2024-cü ildə Gürcüstanın Batumi şəhərində beynəlxalq "Open" turnirinin qalibi olub. Bu uğurlar təkcə şəxsi nailiyyət deyil, həm də Azərbaycan şahmat məktəbinin gücünü sübut edir.

Bu il keçirilən və "Zəkalıların mübarizəsi" adlandırılan Olimpiada yarışında Sumqayıt komandası ilə birlikdə Azərbaycan çempionu olmuş Nurtən bu mötəbər titulun qazanılmasına böyük töhfə verib. Nurtən 6 qat Azərbaycan çempionudur.

Bu gün Nurtən Nuriyeva Azərbaycan milli şahmat komandasının üzvüdür. Gənc şahmatçımızın uğurları həm yaşıdlarına, həm də gələcək nəsillərə motivasiya verir. Onun timsalında biz bir daha şahid oluruq ki, əzm, iradə və istedad bir araya gələndə hər kəs zirvələri fəth edə bilər.

***İ.MƏMMƏDOVA,***
***Sumqayıt şəhər sakini***

● TƏBRİK EDİRİK!

## Tərtərlilərin fəxri, valideynlərinin Sevinci

**Prezident İlham Əliyevin 4 oktyabr 2025-ci il tarixli sərəncamına əsasən, 2025-2026-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə daxil olmuş bir qrup tələbəyə Prezident təqaüdü veriləcək.**

Həmin tələbələr arasında həmyerlimiz, Tərtər şəhər 5 saylı tam orta məktəbin məzunu Sevinc Əlizadə də var. Biz Sevinclə görüşəndə hələ abituriyent idi. Tələbə adını qazanmaq üçün qarşıda onu çətin imtahan gözləyirdi. Ancaq çox rahat və özünə inamlıydı. Artıq yolun yarısını keçmişdi. Özü də böyük uğurla.

Öyrəndik ki, Sevinc Əlizadə kiçik yaşlarından ömür yolunun memarı olmağa çalışıb. İllər ötdükcə qədəm qoyduğu cığırlar genişlənib və böyük bir yola çevrilib. Bu yolda ilk bələdçiləri olan valideynlərinin və müəllimlərinin hər sözünə, tövsiyəsinə diqqətlə yanaşıb, bunları gərgin zəhməti ilə birləşdirib və pillə-pillə ucalıb, nəinki təhsil aldığı məktəbdə, yaşadığı rayonda, eləcə də respublikada tanınıb, adı daim qaliblər sırasında çəkilib.

Məktəb illərində o, üç dəfə tarix üzrə respublika fənn olimpiadasının finalçısı olub, XI sinifdə olimpiadanın gümüş mükafatını alıb, inşa yazı müsabiqələrində, məktəblər arasında keçirilən müxtəlif yarışmalarda dəfələrlə qalib gəlib, sınaq imtahanlarında iki dəfə qızıl, bir dəfə gümüş




sertifikata layiq görülüb. IX sinfi fərqlənmə attestatı, XI sinfi "Xüsusi nümunəvi attestat" və qızıl medalla bitirib.

Bu uğurların hər biri onun gərgin zəhmətinin, vaxtı düzgün bölüşdürmək qabiliyyətinin, eləcə də özünə inamın, həyatda məqsədli olmasının nəticəsidir.

Sevinc zəhmətinə böyük dəyər verdiyi müəllimlərinin adlarını da çəkdi. Ən çox sevdiyi tarix fənnini Elnur İsmayılovdan, ingilis dilini Nigar Məmmədovadan, riyaziyyatı Aidə Məmmədovadan öyrənib. Bütövlükdə isə məktəb məzunlarının yüksək nəticələr qazanmasında, milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında burada çalışan hər bir pedaqoqun, o cümlədən məktəbin direktoru Arzu Babayevanın payı var.

İndi Sevinc Əlizadə Dövlət İdarəçilik Akademiyasında qəhrəman şəhərimizi layiqincə təmsil edir.

***Svetlana BAĞIROVA,***
***"Yeni Tərtər" qəzetinin redaktoru***

● ABADLIQ

## Rahat yol rahat həyat üçün vacib şərtdir

**Bizim Zərdabi qəsəbəsi Quba və Xaçmaz rayonlarının arasında yerləşir. Bura Quba rayonunda əhalinin sıx məskunlaşdığı ərazilərdən biridir.**



Təbiidir ki, hər gün qəsəbənin onlarla sakini rayon mərkəzinə, eləcə də yaxınlıqda yerləşən Qusar, Xaçmaz, Şabran və digər rayonlara iş yerlərinə, yaxud bazar-dükana, xeyrə-şərə yollanır. Əvvəllər çox əziyyət çəkərdik. Çünki yollarımız bərbad vəziyyətdə idi. Qubadan Xaçmaza getmək üçün uzun bir məsafə qət etməli olurduq - sürücülər Şabran ərazisindən keçərək 20 dəqiqəlik yolu bir saata gedirdi.

Öncə Quba və Xaçmaz rayonları arasındakı 20 kilometrlik yol təmir edildi və bu problem aradan qaldırıldı. Lakin qəsəbəarası küçələrin bəziləri yararsız olaraq qalırdı. Bununla bağlı əlaqədar təşkilatlara etdiyimiz müraciət də cavabsız qalmadı. Tezliklə qəsəbədaxili yollar əsaslı şəkildə təmir edildi. Yolların ətrafı təmizləndi və orada işıq dirəkləri quraşdırıldı. Məktəb və inzibati binaların qarşısı abadlaşdırıldı. Həmin ərazidəki küçələrə asfalt döşəndi. Piyadalar üçün səkilər təmir edildi. Qəsəbənin girişi milli ornamentlərlə yeniləndi.

Bu gün sakinlər artıq istədikləri yerə rahat gedib-gələ bilirlər. İnsan qayğı ilə əhatə olunanda həyata daha çox bağlanır, sabaha inamı artır. Onun rahatlığını təmin edən başlıca şərtlərdən biri də məhz yaşadığı ərazidə yolların rahat olmasıdır.

***Fəxrəddin COMƏRDOV,***
***Quba rayonunun Zərdabi qəsəbə sakini***

Azercell

# "Azercell"in "Azercellim", "Bölgə", "GəncSim", "Hər Yerə" və "Bizimkilər" tarif istifadəçilərinin nəzərinə!

Təqdim edilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, internet və rəqəmsal istifadənin stimullaşdırılması, həmçinin istifadəçilərin mobil internetə artan tələbatının qarşılanması məqsədilə 16 noyabr 2025-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sisteminə aid nömrələrinin abunəçiləri üçün "Azercellim", "Bölgə", "GəncSim", "Hər Yerə" və "Bizimkilər" tarif paketləri yenilənmiş və daha əlverişli şərtlərlə istifadəyə veriləcək.

Bu dəyişikliklər abunəçilərin artan tələbatlarına uyğun olaraq həyata keçirilir. Yenilənmiş şərtlərə əsasən, tarif paketlərində mövcud olan **25 şəbəkədaxili danışıq dəqiqəsi əvəzinə abunəçilərə 40 dəqiqə** bütün istiqamətlərə (ölkədaxili) danışıq imkanı təqdim olunacaq. Bu, abunəçilərə istənilən istiqamətdə daha sərbəst ünsiyyət və balansın daha rahat idarə olunmasını təmin edəcək.

Bununla yanaşı, internet və sosial şəbəkələrin istifadəsinə ümumi tələbatın yüksəlməsi nəzərə alınaraq, mobil internet paketinin həcmi də genişləndiriləcək və mövcud **250 MB-dan 450 MB-a** qədər artırılacaq.

Təkmilləşdirilmiş şərtlər əsasında "Azercellim", "Bölgə", "GəncSim", "Hər Yerə" və "Bizimkilər" tarif paketlərinə 3,89 AZN aylıq abunə haqqı tətbiq olunacaq.

Bu dəyişikliklər gələcəkdə də tarif istifadəçilərinə yüksəkkeyfiyyətli və dayanıqlı xidmətlərin göstərilməsini təmin etməklə yanaşı, texniki göstəricilərin də davamlı şəkildə təkmilləşdirilməsinə imkan yaradacaq.

**Qeyd:**

1. "Azercellim", "Bölgə", "GəncSim", "Hər Yerə" və "Bizimkilər" tarif paketlərinin digər şərtləri dəyişilməz qalır.
2. Abunəçilər yuxarıda göstərilən dəyişikliklər, eləcə də "Azercell Telekom" MMC tərəfindən təqdim edilən digər xidmət, tarif, kampaniya və yeniliklər barədə ətraflı məlumatı **www.azercell.com** saytı, mobil tətbiq və ya Müştəri Xidmətlərindən (7/24 fəaliyyət göstərən Telefon Mərkəzi və ofisləri) əldə edə bilərlər.

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Çirkli hava sağlamlığa təhdiddir

İnsanın həyat üçün ən çox ehtiyac duyduğu üç əsas nemətdən biri havadır. Onsuz həyat yalnız bir neçə dəqiqə davam edə bilər. Təəssüf ki, bu gün bəşəriyyət həyat üçün vacib olan bu neməti - havanı hər keçən gün daha çox zəhərləyir.



XXI əsr texnologiya və inkişaf dövrü adlansa da, bu tərəqqinin bədəli bəzən çox ağır olur. Sənaye müəssisələri, avtomobil tüstüləri, tullantı qazları, yandırılan zibillər və ekologiyaya zərər vuran həyat tərzi nəticəsində havanın tərkibi dəyişir, onun hər kubmetri ilə bədənimizə, qanımıza, hüceyrələrimizə zərərli maddələr daxil olur.

Hava çirkliliyi təkcə ekoloji deyil, həm də sosial və sağlamlıq problemidir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il dünyada 7 milyondan çox insan məhz çirkli havanın səbəb olduğu xəstəliklərdən - ağciyər xərçəngi, astma, ürək-damar və tənəffüs problemlərindən həyatını itirir. Çirklənmə təkcə böyük şəhərlərdə deyil, rayon və kəndlərdə də təsirini göstərir. Atmosferdəki zəhərli qazlar torpağa, bitkilərə, suya hopur, bumeranq kimi insana qayıdır.

Mütəxəssislər bildirirlər ki, ətraf mühit faktorları sağlamlığa düşünüldüyündən daha böyük təhlükə yaradır. Ekoloji cəhətdən zərərli havaya qısamüddətli məruz qalmaq belə, xüsusilə yaşlılarda və mövcud sağlamlıq problemləri olan insanlarda infarkt, iflic, ritm pozğunluğu və ürək çatışmazlığı riskini artırır. Çində sənaye çirklənməsi, sıx nəqliyyat və kömür istifadəsi səbəbindən hər il milyonlarla insan ürək-damar xəstəliklərindən ölür. Dünyada ən yüksək hava çirkliliyinə sahib olan Hindistanda bərk yanacaq istifadəsi həm də daxili və açıq havanın çirklənməsinə səbəb olur ki, bu da yüksək infarkt və insult riski yaradır. Hava keyfiyyətinin dünya standartlarından xeyli aşağı olduğu ölkələrdə sənaye və nəqliyyatdan gələn çirkli duman ürək-damar xəstəliklərinin artmasına səbəb olur. Məsələn, Nigeriyada son 20 ildə nəqliyyat və yanacaq keyfiyyətinin aşağı olması səbəbindən havanın çirklənməsi iki dəfə artıb. Bununla bağlı ürək xəstəlikləri də çoxalır. Hava çirkliliyi həddini aşmış Misirdə nəqliyyat, sənaye və səhra tozundan qaynaqlanan ürək-damar xəstəlikləri əsas ölüm səbəblərindəndir. Deməli, ətraf mühiti qorumaq bilavasitə ürəyimizi qorumaq deməkdir.

Mütəxəssislər vurğulayırlar ki, hava çirkliliyinin xüsusilə hamilə qadınlar və körpələr kimi həssas qruplar üzərində ciddi mənfi təsirləri var. Beynin inkişafı üçün mühüm olan dövrdə - hamiləliyin son aylarında çirkli havaya məruz qalan körpələr əksər hallarda vaxtından əvvəl doğulur, doğuşdan sonra yavaş inkişaf edir və məktəb yaşına çatdıqda diqqət əskikliyi və autizm riskləri artır.

Havanın keyfiyyəti təkcə insan sağlamlığına deyil, həm də idrak fəaliyyətinə birbaşa təsir göstərir. UNICEF-in cari ildə açıqladığı "Təzyiq altında: İqlim dəyişikliyinin Şərqi Asiya və Sakit okean regionunda təhsilə təsiri" (Under Pressure: The Impacts of Climate Change on Education in the East Asia and Pacific Region) adlı hesabatına görə, son illərdə ABŞ, Çin, Monqolustan və digər ölkələrdə aparılan genişmiqyaslı elmi-tədqiqatlar bu təsirin təhsil nəticələrində də özünü göstərdiyini sübut edib.

Araşdırmalara əsasən, hava çirkliliyinin səviyyəsi artdıqca şagirdlərin akademik göstəriciləri də aşağı düşür. Bu fakt təhsil prosesində ekoloji amillərin nəzərə alınmasının vacibliyini bir daha önə çəkir. Çinin müxtəlif şəhərlərində aparılan çoxsaylı tədqiqatlar göstərir ki, yüksək hava çirkliliyi günlərində şagirdlərin test balları nəzərəçarpacaq dərəcədə aşağı düşür. Pekin Universitetinin 2019-cu ildə apardığı bir araşdırma 20 minə yaxın şagirdin göstəricilərini təhlil edib və maraqlı nəticəyə gəlib. Müəyyən olunub ki, hava keyfiyyəti indeksi (AQI) hər 10 vahid artdıqda test nəticələri orta hesabla 0,4 faiz azalır.

Tədqiqatçılar bunu həm fizioloji, həm də psixoloji amillərlə əlaqələndirirlər. Çirkli hava tənəffüsü çətinləşdirir, beyinə oksigen axınını azaldır, diqqət və yaddaşı zəiflədir. Hər şey bir gün içində hiss olunmasa da, uzunmüddətli təsir nəticəsində öyrənmə qabiliyyəti aşağı düşür. Maraqlıdır ki, bu təsir yalnız zəif deyil, yüksək nəticə göstərən şagirdlərdə də müşahidə olunur.

Monqolustanın paytaxtı Ulan-Batorda aparılan araşdırma isə vəziyyətin daha ağır tərəfini göstərir. Qış aylarında havada toz hissəciklərinin normadan 10-12 dəfə çox olması səbəbindən bəzi məktəblərdə dərs günlərinin 15-20 faizi ləğv olunur. 2022-ci ildə Monqolustan Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən tədqiqatda orta məktəb şagirdlərinin akademik irəliləyişi ilə hava keyfiyyəti arasında birbaşa mənfi əlaqə təsdiqlənib. Araşdırma göstərib ki, çirklənmiş bölgələrdə oxuyan uşaqların riyaziyyat və oxu üzrə nəticələri təmiz bölgələrdəki yaşıdlarından 15-20 faiz aşağıdır.

Bu, təkcə sağlamlıq deyil, həm də sosial məsələdir. Çirkli hava məktəbə davamiyyətə, motivasiyaya və psixoloji rifaha mənfi təsir göstərir. Uşaqlar daha tez yorulur, yuxusuzluq, baş ağrısı və diqqət dağınıqlığı kimi problemlər artır. Harvard və Çikaqo universitetlərinin 10 il ərzində 2 milyondan çox şagirdlə apardığı araşdırma göstərib ki, hava çirkliliyinin yüksək olduğu bölgələrdə imtahan nəticələri orta hesabla 4-6 faiz aşağı olur. Bu fərq xüsusilə sosial cəhətdən həssas cəmiyyətlərdə daha dərindir, çünki belə yerlərdə həm məktəblərin ventilyasiya sistemi zəifdir, uşaqlar tez-tez xəstələndikləri üçün dərsdən qalırlar. Nəticədə təhsil bərabərliyi pozulur və şagirdlərin öyrənmə imkanlarını fərqli səviyyələrə bölür və uzunmüddətli inkişaf göstəricilərinə mənfi təsir göstərir. Bu səbəbdən müasir təhsil siyasətində hava keyfiyyətinin qorunması, məktəblərin ventilyasiya sistemlərinin təkmilləşdirilməsi və sağlam öyrənmə mühitinin təmin edilməsi prioritet məsələlərdən olmalıdır. Təmiz hava yalnız fiziki sağlamlığın deyil, həm də intellektual potensialın əsas şərtidir.

Ümumdünya Meteorologiya Təşkilatı dünyada havanın çirklənməsi ilə bağlı deqradasiyanın davam etdiyini, lakin bəzi regionlarda, xüsusən də Çinin şərqində və Avropada emissiyaların həcmində azalmanın müşahidə olunduğunu bildirir. Bunun səbəbi Çində və Avropanın bəzi ölkələrində "yaşıl sənaye" və elektromobillərdən istifadənin genişlənməsidir. Məsələn, Şanxay kimi şəhərlərdə daha çox parklar açmaq və ağac əkmək havanın keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

Hava çirkliliyinin yüksək olduğu günlərdə küçəyə çıxmamaq, evdə havatəmizləyici vasitələrdən istifadə etmək, birdəfəlik plastik məhsullardan uzaq durmaq, tullantı yandırmamaq və enerjiyə qənaət etmək kimi kiçik addımlar böyük dəyişikliklər yarada bilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Bəşəriyyət ziyanlı vərdişlərinin əvəzini ödəyəcək

## ÜST alkoqol, siqaret və qazlı içkilərin qiymətlərini kəskin artırmağa çağırır, Aİ isə filtrli siqaretlərin satışını qadağan etmək istəyir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatından sonra Avropa İttifaqı (Aİ) filtrli siqaretləri qadağan etmək qərarına gəlib. Bu təşəbbüsün noyabrda İsveçrənin Cenevrə şəhərində keçiriləcək ÜST konfransında müzakirə edilməsi planlaşdırılır. Bu barədə Almaniyanın "Bild" qəzeti xəbər verir.





Aİ Şurasının qərar layihəsinə görə, tütün məmulatlarının tənzimlənməsi ilə bağlı ÜST hesabatında "siqaretlərin dadını və cazibəsini azaltmaq üçün filtrlərin qadağan edilməsini açıq şəkildə tövsiyə edir". Aİ bu tövsiyəni dəstəkləmək qərarına gəlib, çünki "filtrli siqaretlərin istehsalı, idxalı, paylanması və satışına qadağa qoyulması tütünə qarşı mübarizəyə mühüm töhfə verəcək". Qeyd edilir ki, bu planlar "Tütün məhsulları direktivi" də daxil olmaqla, Aİ-də gələcək tütün tənzimlənməsi üçün əhəmiyyətli təsirlərə malik olacaq. Nəşr yazır ki, yeni qərarın tətbiqi siqareti tamamilə qadağan edə bilər.

Bundan əvvəl ÜST bütün ölkələri spirtli içkilərin, siqaretlərin və şəkərli qazlı sərinləşdirici içkilərin qiymətlərini 2035-ci ilə qədər ən azı 50 faiz artırmağa çağırıb. Təşkilatın ekspertlərinin fikrincə, "3-ə 35" adlanan təşəbbüs növbəti 50 ildə vaxtından əvvəl 50 milyon ölümün qarşısını almağa kömək edəcək. Təşkilatın bəyanatında o da vurğulanır ki, qeyri-sağlam qida ilə əlaqəli qeyri-infeksion xəstəliklər, o cümlədən ürək-damar xəstəlikləri, xərçəng və şəkərli diabet dünya üzrə bütün ölümlərin 75 faizdən çoxunu təşkil edir.

Bəyanatda həmçinin təşəbbüsü həyata keçirmək üçün "sağlamlıq vergiləri" sistemi təklif olunur. Bir sıra ölkələrdə, məsələn, Rusiyada belə vergilər əhalinin sağlamlığına mənfi təsir göstərən məhsullardan tutulur. ÜST hesab edir ki, bu siyasət xroniki xəstəliklərin inkişafının qarşısını alacaq, həmçinin hökumətlərə büdcələrini doldurmağa kömək edəcək.

Təşkilatın hesabatında deyilir:"Kolumbiyadan Cənubi Afrikaya qədər sağlamlıq vergisi tətbiq edən hökumətlər zərərli məhsulların istehlakında azalma və gəlir artımı gördülər. Amma bir çox ölkələr tütün də daxil olmaqla qeyri-sağlam sənayelərə hələ də vergi güzəştləri tətbiq edir. Bundan başqa, tütün vergisinin artırılmasını məhdudlaşdıran sənaye ilə uzunmüddətli investisiya sazişləri milli sağlamlıq məqsədlərini daha da sarsıda bilər. ÜST hökumətləri tütünə qarşı effektiv mübarizəni dəstəkləmək və əhalinin sağlamlığını qorumaq üçün bu cür təşviqlərə yenidən baxmağa və onlardan qaçmağa çağırır".

Risklərin Modifikasiyası üzrə Tibb Mütəxəssisləri Assosiasiyasının direktoru Aleksandr Rozanov təsdiq edir ki, siqaret çəkmək, həddindən artıq spirtli içki istehlakı və düzgün olmayan qidalanma vaxtından əvvəl ölümə səbəb olur. Bununla belə, o hesab edir ki, sağlamlığa mənfi təsir göstərən məhsulların qiymətini qaldırmaqdansa, həyat tərzini, ziyanlı vərdişləri və xəstəliyin inkişafına və ya sağlamlığın pisləşməsinə təsir edən digər səbəbləri məqsədyönlü şəkildə dəyişmək daha doğrudur. Ekspertin fikrincə, ÜST-nin yeni təşəbbüsü mövcud təcrübələri və elmi əsasları nəzərə almadığı üçün, sadəcə, yaxşı niyyət olaraq qalmaq riskini daşıyır.

RF Dövlət Dumasının Səhiyyə Komitəsinin rəhbəri Sergey Leonov da hesab edir ki, yalnız alkoqol, tütün və ya qazlı içkilərin qiymətlərinin artırılması ölkənin sağlamlıq problemini həll etməyəcək. O bildirir ki, "yumşaq güc üsulları"ndan istifadə olunmalıdır. Məsələn, vətəndaşların özlərinin sağlamlığa üstünlük vermələri üçün sağlam həyat tərzini fəal şəkildə təbliğ etmək, kütləvi idmanı və düzgün qidalanmanı dəstəkləmək lazımdır. Dövlət insanların asudə vaxtlarında sağlam fəaliyyətlə məşğul olmalarını asanlaşdıran və onlara üstünlük verən şərait yaratmalıdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə ailəsi ilə birlikdə respublikanın Əməkdar memarı, memarlıq üzrə fəlsəfə doktoru, professor Elkin Ələsgərova həyat yoldaşı

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri respublikanın Əməkdar memarı, memarlıq üzrə fəlsəfə doktoru, professor Elkin Ələsgərova həyat yoldaşı

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova əzizi

**FƏRİDƏ NAĞIZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru Emin Quliyevə atası, Azərbaycanın Xalq artisti, görkəmli tarzən

**RAMİZ QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4085
Sifariş 2094

Qiyməti 60 qəpik